RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 119 (8435) ÇƏRŞƏNBƏ AXŞAMI, 23 iyun 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycan dünyada etibarlı tərəfdaş kimi nüfuz qazanıb

Azərbaycanın Şərq Tərəfdaşlığı ölkələri sırasında özünəməxsus yeri var. Eləcə də Avropa İttifaqı ilə əməkdaşlıq dövlətimizin xarici siyasətinin əsas prioritetlərindən biridir. Ümumiyyətlə, Azərbaycan bütün dünyada etibarlı tərəfdaş kimi nüfuz qazanıb. Yaratdığı mükəmməl əməkdaşlıq və tərəfdaşlıq formatı ölkəmizə ən qlobal layihələri reallaşdırmağa imkan verir.

Bu il iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən sammitində çıxış edərkən Prezident İlham Əliyev məhz bu məsələlərə də toxunmuşdur. Dövlət başçısı Avropa İttifaqının bir çox üzv ölkəsi ilə sıx əməkdaşlığımızın mövcud olduğunu vurğulamışdır. Belə ki, Azərbaycan Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb. Hazırda Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişi ilə bağlı danışıqların yekun mərhələsindəyik.

Avropa İttifaqı ölkəmizin əsas ticarət tərəfdaşıdır. Ticarətimizin təqribən yarısı üzv dövlətlərin payına düşür. 15 ilə yaxındır Azərbaycan Avropa bazarlarına etibarlı şəkildə xam neft nəql edir. Yaxın zamanda ölkəmiz Avropa İttifaqının üzv dövlətlərini təbii qazla təchiz etməyə başlayacaq. 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi olan "Cənub qaz dəhlizi"nin tikintisinin təşəbbüskarı da məhz Azərbaycan olmuş və layihəni maliyyələşdirmişdir. Dövlət başçısı sammitdəki çıxışında Azərbaycan qazını Avropaya çatdıracaq "Cənub qaz dəhlizi"ni enerji əməkdaşlığı, enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsi adlandırmışdır.

Avropanın enerji xəritəsini dəyişdirəcək "Cənub qaz dəhlizi"nin çəkilişi uğurla sona çatmaqdadır. Bu nəhəng layihə beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq şəraitində reallaşmışdır.

"Cənub qaz dəhlizi"nin icrasında yeddi ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya iştirak edirlər. Üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro da "Cənub qaz dəhlizi"nə çoxdan maraq göstərirdilər. Azərbaycan bu ölkələrlə də Avropada enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə dair anlaşma memorandumu imzalayıb.

ABŞ digər mühüm enerji layihələri kimi, "Cənub qaz dəhlizi"nin reallaşmasına da siyasi və mənəvi dəstək vermiş, hərtərəfli kömək göstərmişdir. ABŞ Prezidenti Donald Tramp dövlətimizin başçısına son bir neçə ildə ünvanladığı məktublarda bildirmişdir ki, iki ölkə mürəkkəb regional çağırışların həlli üçün birgə işləyərək sıx tərəfdaşlıq edir.

Nəql olunan təbii yanacağın 9 Avropa şirkəti tərəfindən alınması nəzərdə tutulub. Bunlar ingilis-holland "Shell", Bolqarıstanın "Bulgargaz", Yunanıstanın DEPA, Almaniyanın "Uniper", Fransanın "Engie", İtaliyanın "Hera Trading", "Edison", "Enel" və İsveçrənin AXPO şirkətləridir.

"Cənub qaz dəhlizi" Məşvərət Şurasının 2015-ci ildən indiyədək altı iclası keçirilib. Bu tədbirlərin hamısına Bakı evsahibliyi edib. Bu, bir daha təsdiq edir ki, layihənin təşəbbüskarı və aparıcı qüvvəsi Azərbaycandır.

Cari ilin əvvəlində keçirilən altıncı toplantıya nümayəndələrini göndərən ölkələrin sayı əvvəlki tədbirlərdə olduğundan çox idi. Bu isə layihənin artıq qlobal xarakterini və böyük beynəlxalq əməkdaşlıq platforması üzərində ucaldığını göstərir.

Xatırladaq ki, "Cənub qaz dəhlizi"nin təməli 2014-cü il sentyabrın 20-də - "Əsrin müqaviləsi"nin 20 illik yubileyi günü Bakı yaxınlığındakı Səngəçal terminalında qoyulmuşdur. Layihənin nəhəngliyini nəzərə alsaq, onun təməlqoyma və açılış mərasimləri arasındakı vaxt çox qısa olmuşdur. Cəmi 4 ilə yaxın bir vaxt ərzində qazanılan böyük uğur - "Cənub qaz dəhlizi"nin işə düşməsi Azərbaycanın bundan əvvəl həyata keçirdiyi neft-qaz və ixrac layihələrinin təcrübəsinə əsaslanır. Belə ki, Azərbaycan üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərini də təxminən 4 ilə çəkmişdir. Sonra bu kəmərlə yanaşı, "Şahdəniz-1" qazını Azərbaycanın 13 rayonundan keçməklə Gürcüstana və Türkiyəyə çatdıran Bakı-Tbilisi-Ərzurum boru xəttini inşa etmişdir. Əslində Bakı-Tbilisi-Ərzurum kəməri "Cənub qaz dəhlizi"nin bünövrəsi, başlanğıcı rolunu oynamışdır.

"Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasimi 2018-ci il mayın 29-da Səngəçal terminalında keçirilmişdir. Buna layihənin dörd seqmentindən ikisinin başa çatması imkan vermişdir. Belə ki, həmin vaxt "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində hasilata başlanmış, CQBK-nın (Cənubi Qafqaz Boru Kəməri) genişləndirilməsi sona çatmışdır.

Bu mühüm hadisədən az sonra, iyunun 12-də Türkiyədə, Əskişəhərdə üçüncü seqment - TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) istifadəyə verildi. Keçən il noyabrın 30-da isə Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində kəmərin Avropa ilə birləşən hissəsinin açılışı oldu.

Dəhlizin sonuncu hissəsi olan TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) bu ilin sonunadək istismara veriləcəyi gözlənilir. Beləliklə, Avropadakı istehlakçılara çoxdandır gözlədikləri Azərbaycan qazı çatdırılacaq.

*"Azərbaycan"*

# Vətəndaşların təhlükəsizliyi diqqət mərkəzindədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Bakının Xətai rayonu, Neapol küçəsində yeni yerüstü piyada keçidinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov piyada keçidinin texniki göstəriciləri barədə Prezident İlham Əliyevə məlumat verdi.

Bildirildi ki, yüksək zövq, tam fərqli görkəm, müasir texnologiyalar əsasında inşa olunan bu keçid paytaxtda yeni piyada keçidlərinin tikintisi ilə bağlı aparılan kompleks işlərin tərkib hissəsidir.

Yeni inşa olunan piyada keçidi Heydər Əliyev Parkının yaxınlığında yerləşir. 2000-ci ildə salınan və həmin il açılışında Ulu Öndər Heydər Əliyevin şəxsən iştirak etdiyi bu park rayon sakinlərinin ən sevimli istirahət məkanıdır.

Qeyd edək ki, bu keçidin inşasına qədər ərazidə piyadalar üçün çox böyük çətinliklər olurdu. Onlar xüsusən günün pik saatlarında yolu keçməkdə problemlə üzləşirdilər. Bundan başqa, piyadaların bu ərazidə yolu keçməsi nəqliyyat vasitələrinin hərəkətinə də mane olurdu. Beləliklə, ərazidə piyadalar təhlükə, avtomobillər isə tıxacla qarşılaşırdılar. Yeni keçidin inşası bütün bu problemləri həll edib. Burada fiziki məhdudiyyətli insanların rahatlığını təmin etmək üçün 2 müasir lift quraşdırılıb. Bu qurğunun inşası qısa müddətə, eyni zamanda yüksək keyfiyyətlə aparılıb. Yeni keçid müasir görünüşü ilə fərqlənir.

*Ardı 2-ci səh.*





## Vətəndaşları koronavirusdan qorumaq dövlətin prioritet məsələsidir

### Qlobal təhlükənin əhaliyə təsirini minimuma endirmək üçün səmərəli tədbirlər həyata keçirilir

2020-ci il başlayandan dünyamız COVID-19 adlı çox təhlükəli koronavirus növünə qarşı mübarizə aparır.

Bu ölümcül virus altı ay ərzində planeti çənginə alaraq 213 ölkə və bölgəyə yayıldı, 9 milyondan çox insana yoluxdu, 500 minə yaxın şəxsin həyatına son qoydu. Müxtəlif profilaktik tədbirlərə, mübarizə üsullarına rəğmən, hələ də müasir tibb koronavirusa uduzur.

Qüdrətli dövlətlərin belə, aciz qaldığı bu dönəmdə Azərbaycan COVID-19-la mübarizəni uğurla davam etdirən və müsbət nəticələr qazanan ölkələr sırasındadır.

*Ardı 6-cı səh.*

◆ **Milli maraqlar naminə əməkdaşlıq**

## İlham Əliyevin siyasəti milli maraqlara uyğundur və biz müxalifət olsaq da, onu dəstəkləyirik

### Fərəc QULİYEV: "Prezidentin iradəsi ilə başlayan dialoq prosesi ölkədə yeni siyasi konfiqurasiyanın təkmilləşməsinə, siyasi mühitin sağlamlaşdırılmasına, demokratikləşmənin sürətlənməsinə böyük töhfə verəcək"

Azərbaycanda siyasi sistemdə yeni konfiqurasiyanın formalaşması, dialoq mühitinin yaradılması, müxalifət təmsilçilərinin parlament idarəçiliyində iştirakçı imkanlarının artırılması respublikamızın siyasi dairələrində təqdirəlayiq hal kimi qiymətləndirilir. Prezident İlham Əliyevin apardığı siyasi islahatların tərkib hissəsi olan bu prosesin artıq ilkin nəticələrini verməsi siyasi partiyalar tərəfindən xüsusi qeyd olunur. Müxalifəti təmsil edən Milli Dirçəliş Hərəkatı Partiyasının (MDHP) sədri Fərəc Quliyevlə söhbətimiz də bu barədə oldu.

### Aparılan siyasət uğurludur və gözləntilər də pozitivdir

Yeni düzənin əsas özəllikləri və gözləntilər barədə danışan Fərəc Quliyev bildirdi ki, cəmiyyətin mütəmadi olaraq yenilənməsi vacibdir və istəyirsənsə ölkədə hər şey qaydasında olsun, təbii ki, bir çox köhnələrdən imtina eləmək və yeniləri tətbiq etmək vacibdir: "Ölkəmizdə və dünyada baş verən son qlobal dəyişikliklər də onu özündə ehtiva edir ki, bir çox məsələlərə yenidən baxmaq, yenidən toparlanmaq lazımdır. Çox mobil bir idarəetmə sistemi qurmaq lazımdır, üstəlik cəmiyyət bir yerdə olmalıdır. İradəmizdən asılı olmayaraq bir çox səbəblər də çox ayıq olmağımıza çağırış edir. Biz iradəmizdən asılı olmayaraq müharibə şəraitindəyik. Dünyanı təhdid edən pandemiya bizdə də baş verir. Biz neft ölkəsiyik və neftin qiymətində olan dəyişikliklər də bizim iradəmizdən asılı deyil. Bunlar çox təsirli amillərdir. Ona görə hesab edirik ki, ölkədə mütəmadi olaraq aparılan islahatlara bir az da sürət verilməlidir. Ölkə Prezidentinin bu amilləri nəzərə alması göz önündədir".

Təbii ki, islahatları həyatın bir sahəsində aparıb, digər sahəyə toxunmamaq mümkün deyil. Bu barədə danışan Fərəc Quliyev dedi ki, iqtisadi, sosial sahələrdə həyata keçirilən islahatlar siyasi sahədə də aparılmasını zəruri edir. Bu sahədə islahatlar aparılmasa, digər sahədəki islahatların effekti yüksək olmaz: "Son zamanlar siyasi müstəvidə aparılan islahatlar təqdirəlayiq haldır və hakimiyyətin müxalifətdə olan təşkilatların fikirlərini öyrənməsini, nəzərə alınmasını nümayiş etdirməsi mütərəqqi haldır. Dialoq mühitinin yaradılması, cəmiyyətin bir yerdə olmasının arzulanmasıdır və hamının adekvat davranışı ortada olmalıdır. Əslində iqtidar, Prezident bunu təklif edir.

*Ardı 4-cü səh.*



## Sənayeləşmə siyasətinin əhəmiyyəti pandemiya dövründə özünü daha qabarıq göstərir

Azərbaycanın inkişafında neft sənayesi bir əsrdən çox mühüm rol oynayıb. Elə indinin özündə də neft sənayesi iqtisadiyyatımızda aparıcı sahə kimi qalır. Lakin ötən illərin təcrübəsi göstərdi ki, inkişafın bir sahədən asılı olması risklidir.

Məhz bu üzdən Prezident İlham Əliyev ölkənin hərtərəfli inkişafında qeyri-neft sektorunun önə çıxması üçün radikal islahatların keçirilməsinə qərar vermişdir.

İndi Azərbaycanda qeyri-neft sənayesi müəssisələrinin sayı ildən-ilə artır və nəticədə ölkə üzrə bu sahədə məhsul istehsalında dinamik inkişaf müşahidə olunur. Qeyri-neft məhsulları daxili tələbatı ödəməklə yanaşı, ixrac imkanlarımızı da artırır. Cari ilin dörd ayının nəticələrinə görə, qeyri-neft sektorunda artım 16 faizi üstələyib. Məhsul istehsalında dinamik artım, ixrac imkanlarının genişlənməsi isə, ilk növbədə, bu sahədə yüksək texnologiyalardan istifadə sayəsində mümkün olub.

*Ardı 4-cü səh.*

# Vətəndaşların təhlükəsizliyi diqqət mərkəzindədir







Əvvəli 1-ci səh.



Prezident İlham Əliyevə həmçinin məlumat verildi ki, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 7-ci kilometrliyində, Bakı Beynəlxalq Avtovağzal Kompleksi ilə metronun “Avtovağzal” stansiyası arasındakı ərazidə əsas yolun hərəkət hissəsi genişləndirilərək zolaqların sayı 4-ə çatdırılıb. Bakı şəhərinin şimal girişində xüsusən günün pik saatlarında yaşanan tıxacların aradan qaldırılması məqsədilə icra edilən bu layihə çərçivəsində “20 Yanvar” dairəsində yolun hərəkət hissəsi 10 metrə qədər, magistral yol Bakı Beynəlxalq Avtovağzal Kompleksinin qarşısından keçən hissədə isə hər iki istiqamət üzrə 1 hərəkət zolağı enində genişləndirilib.

Qeyd edək ki, avtomobil yollarında piyadaların təhlükəsizliyini təmin etmək məqsədilə hərəkətin intensiv olduğu ərazilərdə yeraltı və yerüstü piyada keçidlərinin inşasına xüsusi diqqət yetirilir. Son dövrlərdə paytaxtda bu istiqamətdə görülən işlərə nəzər salsaq, bunun şahidi olarıq. Belə ki, 2018-2019-cu illərdə Bakıda və şəhərətrafı yollarda, həmçinin magistrallarda 7 yerüstü və yeraltı piyada keçidi istifadəyə verilib. 2020-ci ilin əvvəlindən indiyədək paytaxtda Heydər Əliyev prospekti ilə Zəki Məmmədov küçəsinin kəsişməsində yeraltı piyada keçidi, Moskva prospekti ilə 20 Yanvar küçəsinin kəsişməsində və Neapol küçəsində yerüstü piyada keçidləri inşa olunub. Hazırda Azadlıq prospekti, Qala-Pirallahı, Mərdəkan-Buzovna, Bakı-Sumqayıt yollarında və digər ərazilərdə piyada keçidlərinin inşası yekunlaşmaq üzrədir. Bundan başqa, bir neçə yerdə isə bu cür qurğuların tikintisi davam etdirilir.

Azərbaycan Prezidenti İlham Əliyev görülən işlərlə bağlı tapşırıq və göstərişləri verdi.

## Biləsuvar rayonunda əkin sahələrinin su təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Biləsuvar rayonunun Çinarlı kəndində əkin sahələrinin su təminatının yaxşılaşdırılması məqsədilə “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.8.21-ci yarımbəndində göstərilmiş məbləğin 455 000,0 (dörd yüz əlli beş min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2020-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Şimali Makedoniya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi və ölkənizə tərəqqi arzularımı çatdırmaqdan xüsusi şərəf və məmnunluq duyuram.

Eyni zamanda bu xoş fürsətdən istifadə edərək Şimali Makedoniya ilə Azərbaycan arasında qarşılıqlı maraq doğuran bütün sahələrdə əməkdaşlıq münasibətlərinin daha da inkişafı və dərinləşməsinə ümidvar olduğumu bildirmək istəyirəm.

Zati-aliləri, xahiş edirəm ən dərin ehtiramımı qəbul edin.

***Stevo PENDAROVSKİ,***
***Şimali Makedoniya Respublikasının Prezidenti***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Dost Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizə səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan sevinc hissi duyur, Sizə uzun ömür, cansağlığı, dost xalqınıza davamlı inkişaf və firavanlıq diləyirəm.

Bu xoş fürsətdən istifadə edərək dost xalqlarımız arasında mövcud olan ikitərəfli əməkdaşlıq əlaqələrindən məmnunluğumu ifadə edirəm.

*Dərin hörmətlə,*

***Sabah Xalid əl-Həməd əl-SABAH,***
***Küveyt Dövlətinin Baş Naziri***

## Lüksemburqun Böyük Hersoqu Əlahəzrət Anriyə

Əlahəzrət!

Böyük məmnunluq hissi ilə Sizi və dost Lüksemburq xalqını ölkənizin milli bayramı münasibətilə öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, ölkənizə daim firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyun 2020-ci il*

# Yeni qurğular enerji təminatını artırır, itkilərin qarşısını alır

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev iyunun 11-də Bakı şəhərinin Xətai rayonunda “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kilovoltluq “Əhmədli” yarımstansiyasının açılışında iştirak edib.



Azərbaycanda enerji təminatının daha da yaxşılaşdırılması istiqamətində mühüm işlər görülür. Bunun nəticəsi özünü həm paytaxtda, həm də bölgələrdə göstərir.

İşlər iki istiqamətdə həyata keçirilir. Belə ki, yeni tikilən elektrik stansiyaları ölkənin generasiya gücünü artırır, təzə ötürücü xətlərin çəkilməsi, həmçinin yarımstansiyaların tikilməsi etibarlı enerji təminatını artırmaqla yanaşı, itkilərin qarşısını alır. İyunun 11-də istifadəyə verilən “Əhmədli” yarımstansiyası yüz minlərlə abonentin enerji ilə fasiləsiz və dayanıqlı təminatında mühüm rol oynayacaq.

Tədbir zamanı dövlət başçısına məlumat verildi ki, yarımstansiya tamamilə yenidən qurulub, köhnə transformatorlar yeniləri ilə əvəzlənib və burada quraşdırılan bütün qurğular müasir standartlara cavab verir. Bununla yanaşı, yenidənqurma zamanı yarımstansiyada müasir idarəetmə binası da inşa edilib. Bu obyekt Suraxanı, Xətai və Nizami rayonlarında əhalinin, sosial və sənaye müəssisələrinin, eləcə də xidmət sahələrinin fasiləsiz elektrik enerjisi ilə təminatına imkan yaradacaq.

Qeyd edək ki, burada müasir avadanlıqların quraşdırılması yarımstansiyanın səmərəliliyini və gücünü artırmaqla yanaşı, enerji itkisinin qarşısını da alacaq. Görülən işlər sayəsində yarımstansiyanın ümumi gücü artırılıb. Eyni zamanda Prezidentin tapşırığına əsasən ölkədə elektrik stansiyaları ilə yanaşı, ötürücü şəbəkədə də geniş yenidənqurma, təmir və bərpa işləri aparılır.

Son illər Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə elektrik enerjisi təsərrüfatının yenidən qurulması, ən son innovativ həll variantından istifadə sayəsində əhalinin etibarlı və dayanıqlı enerji ilə təminatında böyük uğurlar qazanılıb. Qeyd edək ki, son bir-iki ildə ölkəmizdə “Dübəndi”, “Xırdalan”, “8-ci kilometr”, “Buzovna”, “Ağ şəhər”, “Tərtər”, “Ağcabədi” və digər yarımstansiyalar istifadəyə verilib. Təkcə son bir ildə Abşeron regionunda 12 yarımstansiya yenidənqurmadan sonra fəaliyyət göstərir.

Regionların sosial-iqtisadi inkişafına yönəldilən dövlət proqramları çərçivəsində bölgələrdə digər infrastruktur layihələri ilə yanaşı, energetika qurğularının inşasına da start verildi. Beləliklə, Astara, Xaçmaz, Şəki, Şahdağ və Səngəçalda yeni elektrik stansiyaları tikildi. Bununla paralel olaraq ölkə üzrə böyük elektrik stansiyalarının inşası da nəzərdə tutulurdu. Son 16 il ərzində ölkədə 30-dan çox yeni stansiya istifadəyə verildi. Əgər bu stansiyalar vaxtında tikilməsəydi, ölkəmiz xaricdən elektrik enerjisi idxal etməyə məcbur olacaqdı. Bu gün görülən işlərin nəticəsi olaraq Azərbaycan bölgədə enerji ixrac edən ölkəyə çevrilib.

Ölkəmizin enerji gücünün artmasında tikilən böyük elektrik stansiyalarının rolu yüksəkdir. Ən böyük stansiya - “Cənub” Elektrik Stansiyasıdır. Onun generasiya gücü təxminən 800 meqavata bərabərdir. Ondan sonra 525 meqavat gücündə Sumqayıt Elektrik Stansiyası, 400 meqavat gücündə “Şimal-2”, 300 meqavat gücündə “Səngəçal” elektrik stansiyaları tikilərək istifadəyə verilib. Təkcə bu dörd stansiyanın generasiya gücü 2000 meqavatdan çoxdur. Ölkəmizin 8 blokdan ibarət ən böyük Mingəçevir İstilik Elektrik Stansiyasında yenidənqurma işləri aparılır. Stansiya fəaliyyətə başladıqdan sonra əlavə 600 meqavat gücündə elektrik enerjisini istehsal etməyə imkan verəcək.

Azərbaycanda müasir texnika və texnologiyalardan istifadə etməklə alternativ enerjinin əldə edilməsinə də böyük diqqət ayrılır. Keçən ilin sonunda Bakıda iki böyük investorla iki layihənin icrası üzrə müqavilə imzalanıb. Bu, ölkəmizdə bərpaolunan enerji növlərinin yaradılması istiqamətində mühüm addımdır. Həmin müqavilələrin şərtlərinə görə, iki böyük elektrik stansiyası tikiləcək - biri külək, digəri günəş stansiyası olacaq. Beləliklə, gücü 440 meqavat nəzərdə tutulan bu stansiyalar regionun ən böyük analoji obyektləri olacaq. Bu layihələr bütünlükdə xarici investorların vəsaiti hesabına reallaşacaq.

Yeri gəlmişkən onu da qeyd edək ki, hazırda ölkəmizin enerji balansında bərpaolunan enerjinin payı təqribən 17-18 faizdir. Hədəf isə qarşıdakı illərdə bu həcmi 30 faizə çatdırmaqdır. Çünki Azərbaycanda günəş və külək enerji stansiyalarının qurulması üçün kifayət qədər əlverişli yerlər var.

Ölkəmizin enerji sahəsində görülən işlər beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Davos Dünya İqtisadi Forumunun hesabatında Azərbaycan enerjinin əlçatanlığına görə dünyada ikinci yerdə qərarlaşıb.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# Sosial xidmətlər sistemində vahid informasiya məkanının yaradılması nəzərdə tutulur

Aparılan islahatlar həssas qruplara yönələn sosial xidmətləri də əhatə edir. Bu sahədə əsas hədəflər sosial xidmətlər üzrə qanunvericilik bazasının təkmilləşdirilməsi və bu xidmətlərin yeni istiqamətlər üzrə əhatə dairəsinin genişləndirilməsidir.



Eyni zamanda, müasir yanaşmalar əsasında sosial xidmətlərin keyfiyyətinin və çətin həyat şəraitində olanların bu xidmətlərə əlçatanlığının artırılması, sosial xidmət sahəsində ixtisaslı kadr potensialı formalaşdırılması vacib hədəflər sırasındadır.

Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev nazirlikdə sosial xidmət məsələləri ilə bağlı videokonfrans formasında keçirilən iclasda bildirib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iclasda Prezident İlham Əliyevin tapşırığı ilə pandemiya dövründə daha bir sosial dəstək kimi, tənha yaşayan 65 yaşdan yuxarı vətəndaşların da evlərində gündəlik sosial məişət xidmətləri ilə əhatə olunduğu qeyd edilib. Bununla da evlərində sosial xidmət göstərilənlərin sayı 15 mini ötüb. Həmçinin nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun tabeliyində olan sosial xidmət müəssisələrində minədək vətəndaş tam dövlət təminatındadır. Həmçinin sosial sifarişlər əsasında minlərlə şəxs reabilitasiyayönümlü sosial xidmətlərlə əhatə olunur.

S.Babayev sosial xidmətlərin ehtiyacı olan vətəndaşlar üçün əlçatanlığının artırılması, beynəlxalq norma və standartlara uyğun təkmilləşdirilməsi, ünvanlılığının təmin edilməsi üçün müvafiq islahatların davam etdirildiyini deyib.

Nazir bildirib ki, strateji məqsədlərdən biri də sosial xidmət müəssisələrinin şəbəkəsinin genişləndirilməsi, qabaqcıl dünya ölkələrinin təcrübəsinə əsaslanan yeni sosial xidmət modellərinin yaradılması və tətbiqi, innovativ texnologiyaların tətbiqi nəticəsində sosial xidmət sahəsində vahid informasiya məkanının yaradılmasıdır. Sosial xidmətlər sahəsində də müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından daha geniş istifadə nəticəsində innovativ yeniliklərin tətbiqi təmin olunacaq.

İclasda çətin həyat şəraitində olan şəxslərin sosial xidmətlərlə təminatı və bu xidmətlərin keyfiyyətinin artırılması, nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyi publik hüquqi şəxsin yaradılması sahəsində görülən işlər, sosial xidmət sistemində aparılan islahatlar, bu sahədə qarşıda duran vəzifələr ətraflı müzakirə olunub.

# Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq məktubları ünvanlanmaqda davam edir. Respublikamızın bütün guşələrindən vətəndaşlar dövlət başçısının diqqət və qayğısını yüksək qiymətləndirirlər. AZƏRTAC Prezidentin saytına istinadla minnətdarlıq məktublarının daha bir neçəsini təqdim edir.



## "Yürütdüyünüz müdrik siyasəti, qəbul etdiyiniz qətiyyətli qərarları ürəkdən dəstəkləyirik"

Salyan rayonunun Arbatan kəndindən **Sevinc Ələkbərli, Şükufə Babayeva, Əfruzə İsayeva, İradə Rzayeva** və **Vüsalə Abuşova** yazırlar: "Möhtərəm cənab Prezident, bu gün ölkəmiz Sizin qabaqlayıcı tədbirləriniz və məqsədyönlü addımlarınız sayəsində dünyanın bir çox ölkələri ilə müqayisədə koronavirusa qarşı az itki ilə mübarizə aparmaqdadır. Bu ağır günlərdə aztəminatlı ailələrə diqqət və qayğınız, onlara göndərilən maddi və ərzaq yardımları və ölkənin birinci xanımı Mehriban Əliyevanın da dəstəyi bir daha sübut etdi ki, Siz hər zaman xalqın yanındasınız. Bu proseslərin gedişi ərəfəsində bütün ölkədə olduğu kimi, bizim rayonda da tikinti-quruculuq, abadlıq işləri aparılır. Rayonumuzda illərdir təmirsiz olan doğum evində aparılan abadlıq işləri bizim üçün böyük bir hədiyyə oldu. Yaşadığımız Arbatan kəndinə Sizin göstərişiniz əsasında çox gözəl yeni asfalt çəkilməsi rayona gediş-gəlişimizi asanlaşdırıb. Bizim üçün ən sevindirici hal isə 1964-cü ildə tikilib istifadəyə verilən kənd məktəbinin Heydər Əliyev Fondu tərəfindən əsaslı təmirinə başlanılmasıdır. Möhtərəm cənab Prezident, bu işlərə görə biz - Arbatan kənd sakinləri Sizə öz təşəkkür məktubumuzu ünvanlamağı qərara aldıq. Biz bir daha əyani şahidi olduq ki, Siz bu çətin günlərdə belə xalqın üzərindən diqqət və qayğınızı əskik etmirsiniz. Sizə bütün kənd sakinləri adından minnətdarlığımızı çatdırırıq. Sizə sevgimiz və hörmətimiz sonsuzdur. Allah Sizi və ailənizi daim qorusun, ucaltsın, ölkəmizi çiçəkləndirsin, uğurlarınızı əbədi etsin. Biz Sizinlə birlikdə güclüyük!"

Saatlı rayonunun Əhmədbəyli kəndindən ikinci qrup əlil **Bayraməli Əliyev:** "Hörmətli cənab Prezident, mən həmişə Sizin fəaliyyətinizi dəstəkləyən bir Azərbaycan vətəndaşıyam. Siz bütün fəaliyyətinizi vətəndaşların rifahının yaxşılaşdırılmasına həsr etmisiniz. COVID-19 pandemiyasına qarşı səmərəli və düzgün siyasətiniz bunu bir daha sübut etdi. Hazırda dünyanı iqtisadi böhran bürümüşdür. Amma Siz öz müdrik siyasətinizlə Azərbaycanı bu bəladan qorumaqdasınız. Bu çətin vəziyyətdə Siz regionlara səfərlər edir, xalqın firavan yaşayışı üçün yeni obyektlər açır, videokonfranslar və videogörüşlər vasitəsilə mühüm məsələləri müzakirə edir, öz münasibətinizi bildirirsiniz. Böyük siyasətiniz, yüksək zəkanız və uzaqgörənliyiniz sayəsində buna nail olursunuz. Cənab Prezident, xalqımıza göstərdiyiniz bu böyük və məsuliyyətli əməyinizə görə Sizə öz adımdan və ailəmin adından təşəkkür edirəm. Qoy Ulu Tanrı Sizə hər zaman kömək olsun!"

Bakının Pirallahı rayonundan şəhid anası **Xatirə Əliyeva:** "Hörmətli cənab Prezident, şəhid ailələrinə, Qarabağ qazilərinə, məcburi köçkünlərə göstərdiyiniz diqqət və qayğı bizim həyatımızda misilsiz rol oynayır. Sizin bu qayğıkeş münasibətinizdən digərləri ibrət götürürlər. Qarşılaşdığımız çətinliklərin aradan qaldırılması ilə əlaqədar dövlət qurumlarına ünvanladığımız müraciətlərə həssaslıqla yanaşılır, lazımi tədbirlər görülür. Cənab Prezident, bütün bunlara görə Sizə dərin minnətdarlığımı bildirirəm. Mən vətən uğrunda bir oğul itirsəm də, əvəzində minlərlə oğul qazanmışam və bununla fəxr edirəm. Başda Siz olmaqla, şəhid ruhuna və şəhid anasına böyük hörmət və ehtiram bəsləyən hər kəsə alqış və dua edirəm. Ömrünüz uzun olsun!"

Bakının Nizami rayonundan **Yusif Hüseynov:** "Möhtərəm Prezident, mən Qarabağ müharibəsi veteranıyam. Həm Qarabağ müharibəsi veteranları və əlillərinə, həm də şəhid ailələrinə göstərilən qayğıya, onların problemlərinin həllinə görə Sizə və Mehriban xanıma bu kateqoriyalardan olan bütün insanlar adından təşəkkürümü bildirirəm. Sizin fərman və sərəncamlarınızdan irəli gələn tapşırıqların icrası nəticəsində həyat şəraitimiz yaxşılaşmış, narahatlıq doğuran bir sıra məsələlər öz həllini tapmışdır. Qarabağ qaziləri və şəhid ailələri Sizi özlərinin ən böyük himayədarı və dostu bilirlər. Allah Sizi qorusun!"

Qubanın Çartəpə kəndindən **Seyidbala Nəcəfov:** "Hörmətli cənab Prezident, mən Quba rayonunun Çartəpə kəndində yaşayan 82 yaşlı təqaüdçüyəm. Yaşımın bu çağında doğma kəndimi abad, həyatımı firavan görmək mənə çox xoş gəlir. Həyat eşqim artır, ilhamlanıram. Kəndimizdə son illər ərzində xeyli təmir-tikinti işləri görülmüşdür. Elə rayon mərkəzindən kəndə qədər uzanan asfalt yol nəyə desəniz dəyər. Əvvəllər rayon mərkəzinə bir saata güc-bəla ilə çatırdıq. İndi isə bunun üçün cəmi 15 dəqiqə kifayət edir. Qonşu rayon olan Qusara da gediş-gəlişimiz asanlaşmışdır. Hazırda kəndə içməli su xəttinin çəkilməsi istiqamətində işlər gedir. Möhtərəm Prezident, ürəyimdən gələn bu sözləri Sizə çatdırmağı özümə borc bildim. Sizə dərin təşəkkürümü bildirirəm".

Bakının Sabunçu rayonunun Bakıxanov qəsəbəsindən şəhid anası **Xırda Rzayeva:** "Hörmətli cənab Prezident, Siz həmişə biz yaşlıları düşünürsünüz. Yaşayış şəraitimiz yaxşılaşsın deyə təqaüdlərimizi artırırsınız. Bu, bizi sevindirir. Buna görə Sizə təşəkkür edirəm. Çox sağ olun. Sizi bir Prezident, bir övlad kimi sevirik. Sizə arxalanırıq, Sizə güvənirik. Ümummilli Liderimiz Heydər Əliyevin yolunu layiqincə davam etdirirsiniz. Siz mütəmadi olaraq neçə-neçə şəhid ailəsinə, Qarabağ qazisinə, aztəminatlı kasıb ailələrə öz humanist sərəncamlarınızla xoşbəxtlik bəxş edirsiniz. Mənim mənzillə təmin edilməyim bir şəhid anasını sevindirmək, ən azı şəhidlərin ruhu qarşısında böyük ehtiramdır. Bu sevinc ailəmiz üçün necə bir şirin töhfədir, bir Allah bilir. Mənim Sizə təşəkkürüm sonsuzdur. Allah Sizi qorusun!"

İmişlinin Ağamalılar kəndindən **Gülnar Sadıqova:** "Möhtərəm cənab Prezident, Sizin müdrikliyiniz və gördüyünüz təqdirəlayiq işlər sayəsində ölkəmiz son illər ərzində sürətlə inkişaf etmiş və daha da gözəlləşmişdir. Üzləşdiyimiz taleyüklü məsələlərdə və keşməkeşli həyat yollarında xalqımız Sizin həlledici addımlarınızla nicat tapıb, min bir çətinliyə sinə gərib. Son vaxtlar dünyaya meydan oxuyan pandemiya dövründə biz bir daha bunun şahidi olduq. Əvvəlki illərdə çoxlu sayda tibb müəssisələrinin tikilməsi və ya təmir olunması, ölkəmizin maddi ehtiyatlarının formalaşdırılması, texniki imkanların genişləndirilməsi bu çətin məqamda köməyimizə çatdı. Bax budur, uzaqgörənlik. Allah Sizin kölgənizi xalqımızın başı üzərindən əskik etməsin, cənab Prezident! Sizin işlərinizi görənlər görür və qiymətləndirir, görməyənlərin gözünə isə Allahdan nur arzulayırıq. Bir də onu arzulayırıq ki, Allah bu pandemiya bəlasını tezliklə ölkəmizin üzərindən götürsün, Azərbaycan yenidən əvvəlki günlərinə qayıtsın!"

Ağdam rayonunun 689 saylı qəsəbəsindən **Nicat Əhmədov:** "Möhtərəm cənab Prezident, bu gün bəşəriyyətin böyük sınaqla üzləşdiyi çətin dövrdə, koronavirus pandemiyasının tüğyan etdiyi bir vaxtda güclü mübarizə aparılmasına baxmayaraq, dünyanın bir sıra yerlərində, o cümlədən inkişaf etmiş Avropa ölkələrində, Amerika qitəsi ölkələrində hər gün yüzlərlə insan bu dəhşətli xəstəliyin qurbanına çevrilir. Lakin koronavirus infeksiyasının qlobal təhlükəyə çevrilməyə başladığı ilk gündən etibarən Sizin qəbul etdiyiniz qərarlar və qabaqlayıcı tədbirlər pandemiyanın ölkəmizdə geniş yayılaraq kütləvi insan ölümünə səbəb olmasının qarşısını aldı. Sizin çevik və yüksək idarəetmə bacarığınız sayəsində infeksiyaya yoluxmaların sayı aşağı həddə saxlanılmaqdadır. Cənab Prezident, bu xeyirxah işinizə görə Sizə uzun ömür, cansağlığı arzulayır, işlərinizdə yeni uğurlar diləyirəm".

Siyəzən rayonundan **Nailə Quliyevanın** məktubunda deyilir: "Hörmətli cənab Prezident, ölkəmizin sürətli inkişafı, iqtisadi sahənin tərəqqisi Azərbaycanda mədəniyyət və turizm mühitinin də yaxşılaşdırılmasına şərait yaratmışdır. Bu sahəyə göstərilən dövlət qayğısının daha bir nümunəsi isə "Beşbarmaq Dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun yaradılması haqqında 8 iyun 2020-ci ildə imzaladığınız sərəncam oldu. Azərbaycan xalqının tarixinin, mədəniyyətinin, adət-ənənələrinin qədim köklərə malik olduğunu sübut edən bu tarix-təbiət abidəsinin diqqətinizi cəlb edərək Dövlət Qoruğu elan edilməsi xəbəri Siyəzən sakini və tarix müəllimi kimi məni çox sevindirdi. Dünyanın ən qədim insan məskənlərindən, bəşər sivilizasiyasının ilk beşiklərindən olan Azərbaycan daim məşhur səyyahların diqqətini özünə cəlb etmişdir. Azərbaycan dövləti tarixi dəyərlərə söykənən təməl üzərində quruldu. Son illərdə isə iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə yoxdur. Sizin rəhbərliyinizlə ölkədə aparılan iqtisadi islahatların nəticəsində ölkəmiz dünyada tanınmış, regionda lider dövlətə çevrilmişdir. Biz gələcəyə nikbinliklə baxırıq, gələcəyimizin daha da gözəl olacağını görürük. İnanırıq ki, imzaladığınız bu sərəncam da ölkəmizdə turizmin inkişafına öz töhfəsini verəcəkdir. Cənab Prezident, yeritdiyiniz müdrik siyasəti, qəbul etdiyiniz qətiyyətli qərarları ürəkdən dəstəkləyirəm və Sizə minnətdarlığımı bildirirəm".

Bakının Yasamal rayonundan **Taleh Mansurov:** "Hörmətli cənab Prezident, bir gənc olaraq Sizə minnətdarlığı özümə həm vətəndaşlıq, həm də vicdan borcu bilərək bu təşəkkür məktubunu Sizə ünvanlayıram. Hörmətli Ali Baş Komandan, dünyamız həm siyasi, həm iqtisadi, həm də səhiyyə cəhətdən ağır sınaqdan keçir. Artıq məlum məsələdir ki, dünyada supergüc hesab edilən ölkələrdə pandemiyanın ağır fəlakətləri üzə çıxmağa başlayır. Dünyanın bu mənzərəsi qarşısında ölkəmizdəki stabillik, sosial yardımlar Azərbaycanın bu pandemiyadan ən az zərərlə çıxacağının göstəricisidir. Bu gücün əsas səbəbi Sizin xalqımıza olan sevginiz, güclü iradənizdir. Danılmaz faktdır ki, Siz və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyeva dövlətimiz və xalqımız üçün bütün gücünüzlə çalışırsınız. Mən də Azərbaycan gənci olaraq daim siyasətinizi dəstəkləyir, vətənim, dövlətim üçün layiqli gənc olmağa çalışıram. Tanrı Sizi qorusun!"

Füzuli rayon Üçbulaq kənd tam orta məktəbinin müəllimi **Gülü Mütəllimli:** "Hörmətli cənab Prezident, bu məktubu yazmaqla Sizə təşəkkürümü bildirirəm. Bunu özümə vətəndaşlıq borcu hesab edirəm. Bütün dünyanı cənginə alan COVID-19 pandemiyası dövründə etdiyiniz "Biz birlikdə güclüyük!" çağırışınız hər bir vətəndaş kimi məni də qürurlandırdı və ruhlandırdı. Əminik ki, Sizin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın köməyi sayəsində biz bu pandemiyaya qalib gələcəyik. COVID-19 pandemiyasına qarşı gördüyünüz işlərə, qəbul etdiyiniz qərarlara, vətəndaşlarımızı qorumaq istiqamətində fəaliyyətinizə, həmçinin məcburi köçkünlərə göstərdiyiniz diqqət və qayğıya görə Sizə Füzuli rayon Üçbulaq kənd tam orta məktəbinin müəllim kollektivi adından təşəkkürümü bildirirəm. Biz Sizinlə güclüyük, əziz Prezidentimiz! Sizə uzun ömür, cansağlığı və gördüyünüz hər bir işdə uğur arzu edirəm. Allahın nəzəri daim üzərinizdə olsun!"

Ağcabədi rayonundan **Aytəkin Mamedova:** "Hörmətli cənab Prezident, mən Sizə Ağcabədidən yazıram. Sadə bir vətəndaşam. Vətənə layiqli övladlar yetişdirməyi bir vətəndaşlıq borcu hesab edirəm. Necə ki, Siz gördüyünüz işləri təkcə vəzifə borcu kimi yox, həm də vətəndaşlıq borcu kimi həyata keçirirsiniz. Sizə sevgimiz sonsuzdur. Biz anaların istədiyi əmin-amanlıq, sakitlikdir ki, övladlarımızı qorxusuz, sevgi ilə böyüdə bilək. Siz bunu bizə vermisiniz. Ölkəmiz gündən-günə abadlaşır, bütün sahələrdə inkişaf gedir. İnanırıq ki, işğal altında olan torpaqlarımızı da qan tökülmədən, can alınmadan azad etməyə nail olacaqsınız. Sizə cansağlığı, uzun ömür arzulayırıq".

Hacıqabul rayonundan **Orxan Vəliyev:** "Hörmətli cənab Prezident, Sizə öz adımdan və Hacıqabul rayon sakinləri adından təşəkkürümü bildirmək istəyirəm. Bütün dünyanı cənginə alan COVID-19 virusuna qarşı apardığınız müdrik işlər sayəsində Azərbaycan yoluxma sayının az olduğu və minimum zərər çəkmiş ölkələr sırasında yer alır. Bu ağır və çətin vəziyyətdə Azərbaycan xalqının yanında olaraq maddi və mənəvi kömək etdiniz. Ən başlıcası, xalqı düşünmək, onun mənafeyini hər şeydən üstün tutmaq böyük diqqət və fədakarlıqdır. Cənab Prezident, xalqa olan bu diqqətinizə və rayonumuzda son illərdə görülən işlərə görə Sizə bir daha təşəkkür edir, gələcək işlərinizdə yeni uğurlar arzulayıram".

Şirvan şəhərindən **Şahsənəm Xudayeva:** Hörmətli cənab Prezident, mən Şirvan şəhər sakini olaraq Sizin bu çətin günlərdə atdığınız addımları yaxından izləyirəm. Siz Ulu Öndərin təməlini qoyduğu müstəqil Azərbaycan dövlətinə uğurla rəhbərlik edib, onu zirvələrə doğru aparırsınız. Siz xalqımız üçün bu ağır dövrdə böyük fədakarlıq göstərərək insanların həm maddi, həm də mənəvi ehtiyaclarının ödənilməsi, sağlamlığının qorunması istiqamətində genişmiqyaslı işlər görürsünüz. İnanıram ki, pandemiya ilə mübarizə sahəsində həyata keçirdiyiniz bütün tədbirlər müsbət nəticəsini verəcək və biz birlikdə infeksiyaya qalib gələcəyik. Əziz Prezidentimiz, xalqımızın sağlamlığının qorunması üçün gördüyünüz işlərə görə öz adımdan və bütün şirvanlılar adından Sizə dərin minnətdarlığımı bildirirəm. Biz şirvanlılar dövlətçiliyimizin inkişafı uğrunda apardığınız mübarizədə daim Sizi dəstəkləyirik və Sizinləyik. Müstəqil, güclü Azərbaycan naminə gördüyünüz işlərdə Sizə uğurlar arzulayıram".

Şirvan şəhərinin daha bir sakini **Elçin Həsənov** dövlət başçısına minnətdarlığını bu sözlərlə ifadə edir: "Hörmətli cənab Prezident, mən azərbaycanlı olmağımla fəxr edirəm. Azərbaycan mənim vətənim, ana yurdumdur. Azərbaycanda yaşadığım üçün sevinc və qürur hissi keçirirəm. Amma ən böyük fəxrim Sizsiniz, hörmətli Prezidentim. Sizin öz vətəndaşlarınıza göstərdiyiniz qayğı məni qürurlandırır. Bütün dünyanın iqtisadi böhran içində çapaladığı bir dövrdə Sizin atdığınız addımlar, o cümlədən iyunun 11-də Bakı şəhərinin Xətai rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kilovoltluq "Əhmədli" yarımstansiyasının açılışı xalqımızın rifahı, onun xoşbəxt gələcəyi naminə edilir. Buna görə Sizə minnətdaram. Var olun! Tanrı Sizi qorusun!"

Ağdam rayonunun Quzanlı qəsəbəsindən **Elmir Teymurov:** "Hörmətli cənab Prezident, mən bir Azərbaycan gənci kimi bu məktubu Sizə böyük qürur hissi və sevgi ilə yazıram. Dünyada, eləcə də Azərbaycanda gedən prosesləri, fəaliyyətinizi, Azərbaycan xalqına göstərdiyiniz əvəzolunmaz xidmətlərinizi yaxından izləyir, gənc nəslə verdiyiniz xüsusi önəmi yüksək qiymətləndirirəm. Dünyanın koronavirus adlı görünməz düşmənlə savaşdığı bir dövrdə ölkəmizin dünyanın inkişaf etmiş ölkələrinə nisbətən daha az itki verməsi məhz Sizin tərəfinizdən həyata keçirilən çox ciddi, davamlı və təsirli tədbirlər nəticəsində olmuşdur. Azərbaycan xalqı Sizin məhəbbətinizi daim hiss edib və Sizə daim dəstək olmuşdur. Vəziyyətin belə ağır vaxtında Sizin Ağdama olan səfəriniz bizə sevinc bəxş etdi. Bütün ağdamlılar, qarabağlılar bu səfərinizi yüksək qiymətləndirdi və bir daha tək olmadığımızı gördük. Xalq pandemiya dövründə özünün tək olmadığını hiss etdi. Sizin hər bir müraciətiniz Azərbaycan xalqını bu virusla mübarizədə daha diqqətli olmağa çağırdı. Xoşbəxt xalqıq ki, Sizin kimi Prezidentimiz var. Sizə dərin təşəkkürümü bildirirəm. Gənc nəsil Sizinlədir. Sizin arxanızda Sizi sevən Azərbaycan xalqı dayanıb və dayanacaq da. Cənab Prezident, bu gücü bizə verən də Sizin xalqla olan sıx, səmimi münasibətinizdir. Sizə işlərinizdə daha böyük uğurlar arzulayıram".

◆ **Milli maraqlar naminə əməkdaşlıq**

# İlham Əliyevin siyasəti milli maraqlara uyğundur və biz müxalifət olsaq da, onu dəstəkləyirik

## Fərəc QULİYEV: "Prezidentin iradəsi ilə başlayan dialoq prosesi ölkədə yeni siyasi konfiqurasiyanın təkmilləşməsinə, siyasi mühitin sağlamlaşdırılmasına, demokratikləşmənin sürətlənməsinə böyük töhfə verəcək"

*Əvvəli 1-ci səh.*

Siyasi mühitdə yeni konfiqurasiyanın yaranması da bu zərurətdən doğur. Biz ölkəmizi mütləq qütbləşmədən imtina edərək bütövləşməyə aparmağı bacarmalıyıq. Süni şəkildə qarşıdurmaların mövcud olması cəmiyyəti təbii ki, zəiflədir. Ölkəmizdə marağı olan, dost olmayan dövlətlər də bu hallardan dərhal istifadə edirlər. Əslində bu çağırışa cavab da var. Gücünü öz xalqından alan və öz xalqının xidmətində durmağı amalı sayan milli demokratik düşərgə siyasi yenilənmələrdə iştirakdan məmnunluq göstərdi. Təbii ki, ölkəmizdə 5-ci kolon rolunu oynayan, başqa dövlətlərdə quraşdırılan, başqa dövlətlərin ölkəmizdə maşası olanlar bu məsələlərdən kənarda durmağa çalışdılar. Əslində bu normal haldır. Onlar özləri durmasa belə, onları kənarda saxlamaq lazımdır. İşin içinə girərək iş pozmağa cəhd eləməkdənsə, onların kənarda qalması vacibdir. Bir daha bildirmək istəyirəm ki, aparılan bu siyasət uğurludur və gözləntilər də təbii ki, pozitivdir. Bunun alternativi də yoxdur. Qısa zamanda da təbii ki, bəzi nəticələr göründü. Bundan sonra da ciddi pozitiv nəticələr gözlənilir".

### Dialoqdan qaçmaq özünü siyasi proseslərdən təcrid etməkdir

Həmsöhbətimiz onu da bildirdi ki, özünü siyasi mühitdən təcrid etmək, dialoqdan qaçmaq, ümumiyyətlə, siyasi proseslərdən "mən boykot edirəm" deyib kənarda durmaq özünü boykotdan başqa bir şey deyil: "Adını nə qoyurlarsa qoysunlar, bu onu göstərir ki, onlar qarşı tərəflə və yaxud da siyasi palitrada olan qüvvələrlə hər hansı formada danışmaq və müzakirələr aparmaqdan müxtəlif səbəblərdən çəkinirlər, ya bunu bacarmırlar və ya onlara bunu etməyə icazə vermirlər. Bilirsiniz, bəzi məsələləri gizlədirlər və öz adları ilə demirlər. Kənarda hazırlanan qüvvələr var. Bunların da ölkəni qarışdırmaq üçün konsepsiyaları var. Bu qüvvələr ifşa olunmalıdır və bunun hüquqi məsuliyyəti müəyyənləşməlidir. Biganəlik ölkədə pis bir ənənə yarada bilər. İstənilən xarici dövlət açıq-açığına bir qrup yaradıb pulun da verər ki get, ölkəni dağıt. Ona görə buna müvafiq strukturlar fərqli reaksiya verməlidirlər. Amma, ümumiyyətlə, siyasi fəaliyyətlə məşğul olub partiya yaradırsansa və seçkiyə bayaq da toxundum, getmirsənsə, bu o deməkdir ki, hakimiyyətə gəlməyin seçki yolundan başqa yolunu düşünürsən. Başqa formada hakimiyyətə gəlməyə cəhd eləmək artıq qanun pozuntusudur, fərqli bir düşüncəni daşımaqdır, ya da başqalarının iradəsini ölkəyə gətirməkdir.

Xalqına güvənən, xalqından dəstəyini alan və xalqı üçün çalışan milli demokratik düşərgəyə aid olan təşkilatlar birmənalı şəkildə bu yeni siyasi mühitdə iştirakçılıqdan, danışıqlardan başqa yolun olmadığını, hakimiyyətə gəlməyin seçkilərdən başqa yolunun olmadığını qəbul və bəyan edirlər. Özünütəcrid edən məlum kiçik bir qrupla isə heç danışmağa da dəyməz. Hesab edirəm ki, siyasi mühitdə ölkə problemlərini müzakirə etməkdən, onların həlli yolunu göstərməkdən, bir yerdə həll etməkdən yayınanlar özləri özlərini onsuz da siyasətdən kənarda qoyub və bundan narahat olmağa dəyməz. Ölkə siyasi palitrası bundan udur, uduzmur. Nə qədər siyasi palitra təmizlənərsə, təmiz siyasət yürüdülərsə, bu ölkənin xeyrinə olar. Maşa olmağı yol seçənlər, bunu qazanc yolu edənlər artıq özlərini ifşa ediblər.

*Prezident İlham Əliyevin siyasi iradəsi ilə başlayan və Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin iştirakı ilə gerçəkləşən siyasi dialoq prosesi ölkədə yeni siyasi konfiqurasiyanın təkmilləşməsinə, siyasi mühitin sağlamlaşdırılmasına, demokratikləşmə prosesinin sürətlənməsinə böyük töhfə verəcək".*

### "Ölkədə həyata keçirilən siyasətə partiya olaraq töhfəmizi verməyə çalışırıq"

MDHP-nin ölkədə aparılan islahatlara münasibəti birmənalı müsbətdir. Bu barədə danışan Fərəc Quliyevin sözlərinə görə, MDHP-nin bir mövqeyi var: "Biz mütəmadi olaraq islahatlar tərəfdarı kimi çıxış eləmişik və düşünürük ki, təşəbbüskarlıq və iştirakçılıq vacibdir. Bu iki komponent olarsa, müxalifət və iqtidar arasında daha ciddi şəkildə birgə davranış modelini tapmaq mümkün olur. Bununla bağlı müəyyən təkliflərimizin sandıq ədəbiyyatı olması doğru deyil. Həyatın bütün sahəsinə aid olan təkliflərimizi mütəmadi olaraq ictimailəşdirmişik. Parlament fəaliyyətimdə 2015-2019-cu illərdə 177 təkliflə çıxış eləmişəm. Bundan sonra da təbii ki təkliflərimiz ilə çıxış edəcəyik, onların əksəriyyəti nəzərə alınıb. Ən prinsipial məsələlərdə bizim mövqeyimiz ortadadır".

Fərəc Quliyev bu gün də bəzi məsələlərlə bağlı rəhbəri olduğu partiyanın təkliflərinin olduğunu dedi. Bunlardan biri Azərbaycanda gələcəkdə proporsional seçki sisteminin olmasıdır: "Burda siyasi partiyaların gücləri də açıq şəkildə ortada olar. Bəziləri indi özünü "ana müxalifət" adlandırır və virtual həyatda qəhrəmanlıq edir, saxta profillər ilə sosial şəbəkələrdə, özləri demişkən, bir bum yaradırlar. Amma real həyatda gücləri yoxdur. Proporsional seçki sistemində kimin kim olduğu ortaya çıxar, cəmiyyətin hansı düşüncəni dəstəkləməsi də aydın olar.

Başqa təklifimiz iri şəhərlərdə mer seçkisinin keçirilməsidir. Digər təklifimiz yerli icra hakimiyyəti orqanlarının səlahiyyətlərinin azaldılması hesabına bələdiyyələrin səlahiyyətlərinin artırılmasıdır. Bu da siyasi iştirakçılıqda vacib olar".

MDHP-nin aparılan islahatlara münasibəti dərhal ictimailəşdirilir. Bu barədə danışan Fərəc Quliyevin sözlərinə görə, MDHP-nin bir mövqeyi var: "Bizim ana prinsipimiz budur ki, iqtidarda, müxalifətdə, bitərəf olmasından asılı olmayaraq, kim milli maraqlardan çıxış edirsə, o davranışın yanındayıq. Bunun üçün heç bir müqaviləyə, çağırışa ehtiyac yoxdur. Kim milli maraqların əleyhinə olan davranış ortaya qoyursa, onun qarşısındayıq. Bu gün ortaya qoyulan siyasət milli maraqlara uyğundursa, niyə müdafiə olunmamalıdır? Bəs nə günə lazımdır siyasətlə məşğul olan təşkilatların mövcudluğu? Bəziləri deyir biz siyasətlə məşğuluq. Partiya yaradırlar, amma seçkilərdə iştirak eləmirlər. Absurddur, bu. Əgər sən siyasətlə məşğulsansa, partiya yaratmısansa, hakimiyyətə gəlməyi düşünürsənsə, seçkidə iştirak eləməlisən. Yoxsa hər dəfə seçki vaxtı çatanda yaxanı kənara çəkməklə tərəfdarlarını və üzvlərini aldadırsan. Seçki vasitəsilə hakimiyyətə gəlmək istəmirsənsə, başqa formada hakimiyyəti qamarlamaq haqqında düşünürsən demək. Bu mənada MDHP siyasətdə fəal şəkildə iştirak edir, proqramlarını təklif edir və kim tərəfindən olursa-olsun, yaxşı fikirlər olanda dəstək verir. O cümlədən də bu gün aparılan islahatları da, milli maraqlara uyğun olan siyasəti də dəstəkləyirik".

### Müxalifətçilik düşmənçilik deyil

Həmsöhbətimiz rəhbəri olduğu MDHP-nin siyasi dialoqda iştirakı barədə danışaraq dedi ki, ümumiyyətlə, partiya olaraq daim islahatlar tərəfdarı kimi çıxış ediblər: "Müxalifətçilik düşmənçilik deyil. Kimin alternativ təklifləri, proqramı varsa, masaya çıxara və müzakirəyə verə bilər. Prinsipcə belə olmalıdır ki, partiya öz platforması, proqramı ilə seçkilərdə özünü cəmiyyətə təqdim edir və qazanırsa, bunu özü həyata keçirir. Yox əgər qazana bilmirsə, iqtidara gələn partiyaya bunu təklif edib həyata keçməsini təmin eləməlidir ki, birbaşa hakimiyyətdə olmasa da, düşüncəsi hakimiyyətə gəlsin. Bu çox normal bir haldır. Bizim partiyamızın prinsipi budur. Biz düşüncəmizin hakimiyyətə gəlməsində maraqlıyıq. Kimin masada oturması mühüm deyil. Dialoqdan imtina eləməyin heç bir məntiqi yoxdur. Dialoq savaşan dövlətlərin belə, sonda masada oturması prosedurudur. Biz də təklif edirik ki, dalaşmaqdan əvvəl danışmaq lazımdır. Əgər sənin bir düşüncən varsa, ortaya qoymalısan. Neqativlər varsa, göstərməlisən, çatışmazlıqların aradan qaldırılması yollarını göstərməlisən, cinayətlər varsa, bilirsənsə, gizlətmə, de bunları, bunlar hamısı danışıqlardan keçir".

Fərəc Quliyevin sözlərinə görə, cəmiyyətimizin tamlığını nümayiş etdirməsi üçün də dialoq vacibdir. "Brüsseldə Avropa Parlamenti 10 iyun tarixində Ermənistanın işğalçı siyasətinə qarşı mühüm bir siyasi sənəd qəbul elədi. Burda Avropa parlamentinin Azərbaycan üzrə, Ermənistan üzrə məruzəçiləri və Azərbaycan-Gürcüstan-Ermənistan üzrə parlament əməkdaşlıq komitəsinin nümayəndəsinin sədri Ermənistanı Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ bölgəsi ilə birləşdirən yeni magistral yolun tikintisi ilə bağlı çox ciddi bir bəyanat verdilər. Bəyanatda təkcə bu yola toxunulmur. Məsələnin ciddiliyini Ermənistan mətbuatı və siyasiləri də ortaya qoyur. Bu ilk dəfədir ki, çox açıq şəkildə, fərqli tonda artıq Ermənistana yetər deyilir. Bu sənəddə Dağlıq Qarabağın da, Aran Qarabağın da işğal olunduğu göstərilir. Çağırışlarda problemin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunacağı qoyulur və s. Bu sənəd haqqında geniş danışmaq istəmirəm. Söhbət ondan gedir ki, beynəlxalq əhvali-ruhiyyə dəyişilir və bizim düşmən üzərində daha ciddi diplomatik uğurlarımızın əldə olunması imkanları yaranır. Gələcəkdə əgər ermənilər Azərbaycanı dinc yolla tərk eləməsələr, onda hərbi əməliyyatlar üçün bizim əlimizdə əsas yaranır və indidən beynəlxalq ictimai rəyin oturuşması, formalaşması üçün bu çox vacibdir. Azərbaycan cəmiyyətinin bu halda toparlanması və milli iradənin ortaya qoyulmasında vahid mövqenin olmasını göstərmək çox vacibdir. İndi Ermənistanda cəmiyyətin parçalanması, qarşıdurmalar və çəkişmələr var. Ona görə biz bu məsələni nəzərə alaraq ciddi şəkildə masa arxasında bu və digər məsələləri müzakirəyə çıxarmalıyıq və nəticələr əldə etməliyik. Çünki Qarabağla bağlı aparılan siyasətə müxalif düşüncə yoxdur, hər kəs eyni cür düşünür. Ölkə Prezidentinin də açıq, birmənalı şəkildə qoyduğu mövqelər də təbii ki, milli maraqlarımızı uğurla müdafiə edir və bütün hallarda, bütün vasitələrlə buna dəstək verməliyik. Başqa söhbət ola bilməz. Prezident təkcə iqtidar partiyası tərəfindən dəstək almalı deyil. Prezident cəmiyyətin dəstəyini almalıdır. Bu və digər məsələləri nəzərə alaraq ölkədə gələcəkdə də daha arzuolunan mənzərəni yaratmaq üçün dialoq vacibdir".



### Dövlətə qarşı radikallıq edənlər 90-cı illərdə düşmənlə mübarizədən qaçırdılar

MDHP sədri bildirdi ki, ölkə siyasətinin həyata keçirilməsində və uğur qazanılmasında bütün partiyalar iştirak etməlidir: "Siyasi palitrada, ümumiyyətlə, rəngarənglik vacibdir və fikir müxtəlifliyi də təbii ki, vacibdir. Əsil normal, doğru, faydalı fikirlər müzakirələrdən və müqayisələrdən keçir və hətta mübahisələrdən keçir. Məsələn, parlamentdə 177 təklif vermişdim. Onların hamısında sərt tənqidlər olmasına baxmayaraq, rəğbətlə qarşılanıb və əksəriyyəti nəzərə alınıb. Dialoq zamanı da milli taleyüklü məsələlər ortaya qoyulmalıdır, müzakirələr aparılmalıdır. 54 partiya kənarda durub hakimiyyətdə olan siyasi kəsimi müşahidə eləməli deyil, ölkə siyasətinin müəyyənləşməsində, uğur qazanmasında iştirak etməlidirlər".

Qeyd olundu ki, iştirakçılıqla bağlı olaraq iqtidarın son addımlarında indiyə qədər olmayan yeniliklər də var: "Bu, ölkə Prezidentinin iradəsinə bağlı olan bir məsələdir. Məsələn, Milli Məclisdə Yeni Azərbaycan Partiyasının çoxluq təşkil etməsinə baxmayaraq, müxalifətin spikerin müavini, komitə sədrinin müavini səviyyəsində təmsilçiliyi çox normal haldır. Bu təcrübəni digər aşağı idarəetmə sistemlərində də tətbiq eləmək mümkündür. Ümumiyyətlə, düşünürəm ki, idarəetmədə siyasi düşüncəsinə görə yox, daha çox peşəkarlığına, vətənpərvərliyinə, dövlətinə bağlılığına, bacarığına görə müxtəlif təşkilatlardan üzvlərin müəyyən idarəetmə sistemlərinə cəlb olunması çox normal hal olar. Mən bir dəfə təklif eləmişdim ki, islahat və nəzarət qurumu yaratmaq mümkün olar. Prezidentin rəhbərliyi ilə bu islahata nəzarət qurumu üzvlərinin üçdəbiri parlament partiyalarından, üçdəbiri digər partiyaların nümayəndələrindən, üçdəbiri də Prezidentin təqdimatı ilə nümayəndələrdən ibarət ola bilər. Daim çalışan bir qurum olaraq orda islahatlar və islahatların gedişinə nəzarət ilə bağlı çox ciddi müzakirələr aparıla bilər. Yəni burda məsuliyyəti də hamı bölüşər. Bu, təkcə partiyaların nümayəndələrinə, partiyalara hüquq vermək deyil, həm də məsuliyyət verməkdir ki, birlikdə islahatları irəli aparaq".

Fərəc Quliyev yenilənən siyasi mühitdə partiyaların təkmilləşməsindən də bəhs etdi. Bildirdi ki, təkmilləşmə kamilləşmədir. Həyatın fəlsəfəsi daim təkmilləşmədən keçir: "Bütün partiyalar da ardıcıl olaraq öz üzərlərində işləməlidirlər, çalışmalıdırlar ki, yenilənsinlər. Çünki artıq dünya dəyişir, iqtisadi sahədə artıq 4-cü sənayeləşmə çağırışı var, süni intellekt iqtisadiyyatda başqa resurslardan önə keçir və s. Dünya sürətlə dəyişir. 80-ci illərin mahiyyətində çıxış eləmək olmaz. Müasir çağırışları anlamayan bəzi partiyalar özünün gündəmdə qalmasını radikal davranışlarla təmin etməyə çalışırlar. Amma bu nə "radikallıqdır"? Bu gün öz dövlətinə qarşı radikallıq edənlər 90-cı illərin mübarizəsində düşmənə qarşı kəskin mübarizədən qaçırdılar, çəkinirdilər. Biz SSRİ-yə qarşı mübarizə aparanda bütün mübarizə formalarından istifadə etmişik. Mən özüm ən radikal davranışları sərgiləyənlərdən biri olmuşam. Yarımleqal "Qisas" təşkilatı yaratmışam, hətta silahlı müqavimət göstərmişik işğalçı imperiya ordusuna. Amma bu gün bizim müstəqil dövlətimiz var, burda sivil mübarizə aparılmalıdır! O dönəmdə radikallıq lazım olanda özünü demokratik göstərərək qorxusundan kənarda gizlənib, bu gün isə özünə radikal deyib, öz dövlətinin üstünə gəlmək qəhrəmanlıqdırmı?

Hər bir təşkilat öz fəaliyyətinə, yanaşmalarına yenidən baxmalıdır. İştirakçılıqda yeni çağırışlara cavab verəcək tövr nümayiş etdirilməlidir. Müxalifətçilik ziddiyyət təşkil etmək, düşmənçilik deyil. Müxalifətçilik problemlərə qarşı müxalif davranmaqdır. O problemləri aradan qaldırmaq, onun yerinə daha yaxşı davranış modelini təklif etməkdən ibarət olmaldır. Mən hesab edirəm ki, artıq cəmiyyət yavaş-yavaş buna da öyrəşir və müxalif partiyalar da təbii ki, öz yanaşmalarında bunu nəzərə almalıdırlar".

### Azərbaycan pandemiya ilə mübarizədə peşəkar davrana bildi

Koronavirus pandemiyasına qarşı ölkəmizdə aparılan mübarizə tədbirlərindən danışan Fərəc Quliyevin sözlərinə görə, dünya yaxşı mənada təəccübləndi ki, Azərbaycan bu mübarizədə peşəkar davrana bildi: "Qısa zaman ərzində qabaqlayıcı tədbirlər görüldü. Ölkə Prezidentinin çağırışları, Operativ Qərargahın fəaliyyəti, həkimlərimizin, polislərimizin fədakarlığı təqdirəlayiqdir. Dövlət tərəfindən işsiz vətəndaşlara, sahibkarlıq subyektlərinə maddi dəstəyin göstərilməsi, vətəndaşlara əməkhaqlarının tam ödənilməsi və sair tədbirlər Azərbaycanın pandemiya dövründə ortaya qoyduğu uğurlu fəaliyyətin göstəriciləridir. Eyni zamanda modul tipli xəstəxanaların yaradılması, xüsusi laboratoriyaların alınıb gətirilməsi, dərman vasitələri ilə təminat, qoruyucu maska fabriklərinin istifadəyə verilməsi göstərdi ki, ilk vacib məsələ vətəndaşların sağlamlığıdır.

Çox təəssüf ki, son vaxtlar vətəndaşların problemlə bağlı məsuliyyətsiz davranışı görünməkdədir. Pandemiyaya qarşı mübarizə tədbirləri təkcə səhiyyə sistemi yolu ilə, inzibati yollarla olmur və aparılan tədbirlərə əhali tərəfindən ciddi şəkildə dəstək verilməlidir və ən azından məsuliyyətsizlik, maneə olmamalıdır".

### Korrupsiyaya görə həbs edilənin adını "siyasi məhbus" kimi beynəlxalq qurumlara göndərirlər

Son dövrlər Azərbaycanda gündəmin əsas mövzularından biri də korrupsiya ilə mübarizə tədbirlərinin gücləndirilməsidir. Fərəc Quliyev dedi ki, mübarizə tədbirlərinin gücləndirilməsi hamının ürəyincədir: "Təəssüf hissi ilə qeyd eləməliyik ki, bəziləri öz vəzifələrindən sui-istifadə edərək oğurluqla, talançılıqla məşğul olublar. Hətta pandemiya dövründə aztəminatlı vətəndaşlara verilən yardımlara, ictimai işlərə cəlb olunan vətədaşların kartlarına göz dikiblər. Bunlar çox üzücüdür. Amma aparılan mübarizə tədbirləri göstərir ki, bu məsələdə heç kimə güzəşt olmayacaq.

Bizim partiyanın bu məsələ ilə də bağlı təklifləri oldu. Hesab edirəm ki, korrupsiyaya qarşı mübarizədə müsadirə olunan əmlak və vəsaitlər haqqında açıqlamalar olmalıdır. Həmin vəsaitlərin büdcəyə daxil olmasını göstərmək də lazımdır. Vətəndaşlar da, beynəlxalq qurumlar da görməlidir ki, oğurlanan nə qədər vəsait geri qaytarılıb. Bu həm də oğurlanaraq xaricə çıxarılan vəsaitlərin geri qaytarılması üçün lazımdır. Bu mənada paralel tədbirlərin də görülməsi vacibdir. Eyni zamanda təkliflərimizdən biri odur ki, ciddi postlara təyinatlar zamanı həmin adamların əmlak bəyannaməsi də göstərilsin.

Çox təəssüf ki, bu məsələdə də özünü radikal adlandıran, bəzi dövlətlərin oyuncağı olanlar fərqli mövqe nümayiş etdirdilər. Onlar korrupsiyaya qarşı mübarizədən danışırlar, amma sonra korrupsiyaya görə həbs edilənin adını "siyasi məhbus" kimi beynəlxalq qurumlara göndərirlər. Bu nə qədər səmimi davranışdır, nə qədər dürüstlükdür, nə qədər doğru siyasətdir?

Ölkə rəhbərliyində kim olursa-olsun, yaxşı işlər görülürsə, o işlərə cəmiyyət, siyasilər tərəfindən pozitiv impuls verilməlidir, təqdir olunmalıdır, alqışlanmalıdır. Bu məsələlərdə biz partiya olaraq mövqeyimizi mütəmadi olaraq bildirmişik. Ölkənin hansı bir sektorunda neqativ hal görmüşüksə, bir-bir göstərmişik və çox məmnunam ki, əksəriyyəti nəzərə alınıb, ölçü götürülüb. İndi də biz neqativ halları görəndə müəyyən dairələrə, strukturlara müraciət edirik, tədbir görülməsini tələb edirik. Bu da hamının əlbir olub görə biləcəyi işdir, ictimai nəzarətdir. Prezidentin də özünün çağırışları oldu ki, bu məsələlərdə ictimai nəzarətin gücləndirilməsi lazımdır. Həm ictimai nəzarət güclü olmalıdır, həm də bu məsələlərdə iştirakçılıq güclü olmalıdır".

### MDHP öz resursları ilə dövlət başçısının yanındadır

Fərəc Quliyevlə Prezident İlham Əliyevin müəllifi olduğu sosial-iqtisadi islahatlar konsepsiyasının yeni keyfiyyət mərhələsinə qədəm qoyması ilə bağlı da söhbətləşdik. O dedi: "Dünyadakı yeni təməl trendlər baxımından əsaslı yeni bir iqtisadiyyat, həyatın, dövlətin yeni təbiəti müəyyənləşib. Artıq qaynaq və paylaşım böhranı, istehsal-istehlak-böyümə düsturunun keçərsizliyi, enerji, su və qida etibarsızlığı, həyatın bütün sahələrində dördüncü ölçüyə keçid məsələsi, sərt gücdən yumşaq gücə transformasiya təməl prinsiplərə çevrilib. Bütün bu təməl parametrlərin içərisində təbii ki, texnologiyadakı yeniliklər, süni zəka, virtual artırılmış reallıq, mobillik mərkəzi mühüm yer tutur. Bizim ölkədə islahatlar və yeni iqtisadi sistemin qurulmasında bunlar nəzərə alınmalıdır. Dünyada yeni şərtlər yaranıb. Xüsusən pandemiyadan sonrakı dönəm üçün yeni yanaşmalar qaçılmazdır.

Azərbaycanda da təbii ki, iqtisadi, ərzaq təhlükəsizliyi və başqa sahələrdə olan təhlükəsizliklə bağlı yeni sistem tələb edilir. Bütün dünyada təhlükəsizliyin yeni ekosistemi-iqtisadi sistemi yaranacaq və biz buna uyğun davranış nümayiş etdirməliyik. Bizi təhdid edənlərə qarşı iqtisadi gücümüzü qoymaq, daxili gücümüzü toparlamaq, xarici siyasətimizə yenidən baxmaq, hərbi siyasətimizə baxmaq, içəridə daxili siyasətimizdə parçalanmadan bütövləşməyə keçid prinsipini əsas götürmək vacibdir. Bunu mən niyə xüsusi qeyd edirəm? Ölkə Prezidenti sosial-iqtisadi sahədə apardığı islahatlarda bütün bu amilləri nəzərə alır. Çünki Azərbaycan maraqlar dairəsində olan bir ölkədir. Azərbaycan dünyada orta miqyaslı "middle power" ölkə sayılır. Belə ölkələr aparıcı ölkələr olmasa da, artıq inkişaf eləmiş ölkələr sırasına keçməyə hazırlaşanda, onlara münasibətdə həssaslıq yaranır. Ona görə bir çox sahələrdə islahatların aparılması təbii ki, vacibdir, amma bu ehtiyatlı davranış tələb edir. Azərbaycan ərazisinin kiçik olmasına baxmayaraq, artıq apardığı doğru siyasət ilə bəşəriyyətə sülh, davamlı inkişaf bəxş edən və bu dəyərləri təbliğ edən ölkə kimi tanınır. Bu imici də qaydaya salmaq, həm də ölkəmizin əhalisinin rifahını təmin eləmək üçün Azərbaycan siyasətinin mərkəzində həmişə insan amili olub. Bu gün də insan amili qabardılır və sosial-iqtsadi sahədə aparılan islahatlar insan amilini nəzərdə tutur.

Həm də nəzərə alınır ki, Azərbaycan neft ölkəsidir. Neft gəlir olduğu qədər də riskdir. Neftin qiyməti bizdən asılı olmayan səbəblərdən siyasi aspektdən dəyişkən olur, bazarda tələb və təklifdən daha çox siyasi münasibətlərə görə dəyişir. Ona görə ölkəmizdə daha çox qeyri-neft sektorunun formalaşması, inkişafı üçün müəyyən tədbirlər görülməlidir. Əhalinin aztəminatlı hissəsinin gələcəkdə qeyri-neft sektoru hesabına işlə təminatı, rifahının yüksəldilməsi bu paket içərisində nəzərdə tutulur. Sosial-iqtisadi paketin bu gün və perspektivdə təsirlərini nəzərə almaqla həyata keçirilməsi təqdirəlayiqdir".

Belə bir dönəmdə Prezident İlham Əliyevə uğurlar arzu edən Fərəc Quliyev dedi ki, Milli Dirçəliş Hərəkatı Partiyası öz resursları ilə dövlət başçısının yanındadır.

***Söhbəti yazdı:***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

---

# Müdafiə naziri Moskvada keçiriləcək hərbi parada dəvət olunub

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Rusiya Federasiyasının Müdafiə naziri, ordu generalı Sergey Şoyqunun dəvəti ilə Moskvada keçiriləcək hərbi paradda iştirak edəcək.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik Z.Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti iyunun 24-də Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 75 illiyinə həsr olunmuş hərbi parada qonaq qismində qatılacaq. Nümayəndə heyəti iyunun 23-də Moskvaya yola düşəcək.

Paradda ölkəmizi Azərbaycan Ordusunun 75 hərbi qulluqçusundan ibarət parad heyəti təmsil edəcək.

---

# Azərbaycan Ordusu bölmələrinin dağlıq ərazidə təlimi keçirilib



Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci il üçün döyüş hazırlığı planına əsasən dağlıq ərazidə hücumun planlaşdırılması və aparılması tapşırıqlarının icrası üzrə Azərbaycan Ordusu bölmələrinin təlimi keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimə 800 nəfərədək şəxsi heyət, 100-dək zirehli döyüş və avtomobil texnikası, 40-dək müxtəlif çaplı artilleriya qurğusu, 6 döyüş və nəqliyyat helikopterləri cəlb edilib.

Təlimin məqsədi komandirlərin dağlıq ərazidə döyüş bacarıqlarının təkmilləşdirilməsi, dağlıq ərazidə hücum döyüşlərinin aparılması zamanı bölmələrin idarəolunması, şəxsi heyətin fiziki dözümlülüyünün yoxlanılması, eləcə də bölmələrin qarşılıqlı fəaliyyətinin təşkili olub.

Həyəcan siqnalı ilə qaldırılan bölmələr ehtiyat rayonunun tutulması, dağ aşırımlarının və hakim yüksəkliklərin ələ keçirilməsi, əsas qüvvələrin hücumu üçün əlverişli şərait yaradılması tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirib.

Təlimin yekun mərhələsində döyüş atışları icra olunub.

---

# Sənayeləşmə siyasətinin əhəmiyyəti pandemiya dövründə özünü daha qabarıq göstərir

*Əvvəli 1-ci səh.*

Təsadüfi deyil ki, bu gün Azərbaycan dünyada innovativ texnologiyalardan geniş istifadə edən ölkə kimi tanınır.

Xəbər verildiyi kimi, iyunun 1-də Asiya İnkişaf Bankının təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevlə bankın prezidenti Masatsuqu Asakava, vitse-prezidenti Şiksin Çen və bankın rəhbərliyinin digər nümayəndələri arasında videokonfrans keçirilmişdir. Dövlət başçısı videokonfransda sənayeləşmə istiqamətində görülən işlərin, yüksək texnologiyaların tətbiqinin nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirildiyini bildirərək demişdir: "Sizin də düzgün qeyd etdiyiniz kimi, Davos Dünya İqtisadi Forumu ilə bizim münasibətlərimiz indi yeni mərhələyə qədəm qoyub. Yanvar ayında cənab Börqe Brendlə Davosda Azərbaycanda region üzrə Dördüncü Sənaye İnqilabının regional habının yaradılması üzrə sənəd imzalandı. Hesab edirəm ki, bu, bizim sənaye inkişafında gördüyümüz səylərin yaxşı qiymətləndirilməsinin bir nümunəsidir. Biz nəinki təkcə Azərbaycan üçün, eyni zamanda region üçün çoxsaylı güclü platformanın necə inkişaf etdirilməsi ilə bağlı sizinlə işləməyə hazırıq ki, çox imkanlar yaratmaq məqsədilə infrastrukturumuzdan, bağlılıqdan və Azərbaycanın coğrafi mövqeyindən istifadə etmək mümkün olsun".

Sitatdan da aydın görünür ki, ölkəmizdə aparılan iqtisadi siyasətin hədəfi sənayeni daha da inkişaf etdirməkdir. Məqsəd dünyanın inkişaf etmiş sənaye ölkələri səviyyəsinə çatmaqdır. Hazırda Azərbaycanda istehsal olunan sənaye məhsulunun həcmi Ermənistanın və Gürcüstanın birgə istehsal etdikləri məhsullardan daha çoxdur.

Bu uğurun qazanılmasında sənaye parkları və sənaye məhəllələri xüsusi rol oynayır. Hazırda Bakıda, Sumqayıtda və Mingəçevirdə nəhəng sənaye parkları fəaliyyət göstərir. Sumqayıtda iki sənaye nəhəngi - Sumqayıt Texnologiyalar Parkı və Sumqayıt Kimya Sənaye Parkı fəaliyyət göstərir. Bununla yanaşı, şəhərdə müasir texnologiyalardan istifadə edən digər sənaye müəssisələri də yüksək keyfiyyətli məhsullar istehsal edirlər.

Ölkəmizdə sənayeləşmə istiqamətində həyata keçirilən işlərin pandemiya dövründə nə qədər əhəmiyyətli olduğunu görürük. Koronavirusun yayılmasından sonrə səhiyyə işçilərini və əhalini qoruyucu tibbi maska ilə təmin etmək problemi ilə üzləşmişdik. Lakin dövlət başçısının vaxtında atdığı addımlar bu problemi tez bir zamanda həll etməyə imkan verdi. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 12-də Sumqayıtda "Gilan Tekstil Park" MMC-nin tibbi maska fabrikinin və tikiş fabriklərinin nəzdində fəaliyyət göstərən qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışını etdilər. Fabrikdə istehsal olunan maska üçqatlı və orta qatı xüsusi süzgəc funksiyasını yerinə yetirən toxunmamış parçadan ibarətdir. Bu maskalar müxtəlif kateqoriyalı virus və infeksiyalara qarşı davamlıdır, keyfiyyətinə görə dünyada analoqu olan belə məhsullarla rəqabət aparmaq qabiliyyətindədir. Məhsulun keyfiyyəti fabrikə daxili tələbat ödənildikdən sonra geniş ixrac imkanı da yaradır.

Məlumdur ki, koronavirusla mübarizədə tibb işçiləri ön cəbhədədir. Amma onların xəstəliklə mübarizə aparmaları üçün özlərinin də qorunması lazımdır. "Gilan Tekstil Park" MMC-yə məxsus fabrikdə istehsal olunan birdəfəlik istifadə üçün qoruyucu kombinezonların istehsalı bu sahədəki çatışmazlığı aradan qaldırıb. Bu məhsullar polietilen qoruyucu membranla örtülərək, yüksək sıxlıqlı polipropilendən olan toxunmamış parçadan tikilir. Parça möhkəmliyi, sukeçirməzliyi, kimyəvi maddələrə davamlığı, yüngüllüyü ilə fərqlənir. Belə materialdan tikilən qoruyucu kombinezonlar istifadəçiləri virus, infeksiya, zərərli kimyəvi maddələrdən və ya həssaslıq yarada bilən məhsul və proseslərdən qoruyur.

Bu imkanların əldə olunmasının əsas səbəbi Prezident İlham Əliyev tərəfindən vaxtında ölkədə sənayeləşmə siyasətinin həyata keçirilməsidir. Həmin istiqamətdə atılan addımlar ekstremal hallarda ölkəmiz üçün lazım olan məhsulların istehsalına imkan yaradır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Vətəndaşları koronavirusdan qorumaq dövlətin prioritet məsələsidir

## Qlobal təhlükənin əhaliyə təsirini minimuma endirmək üçün səmərəli tədbirlər həyata keçirilir



*Əvvəli 1-ci səh.*

Virusun dünyaya yayılmağa başladığı ilk vaxtdan etibarən Azərbaycan dövləti ən ciddi qabaqlayıcı addımlar atdı. Prezident İlham Əliyev vətəndaşların sağlamlığını qorumağa yönəlmiş məqsədyönlü strategiya irəli sürdü və bu, beynəlxalq qurumlar tərəfindən də təqdir edildi.

Azərbaycanda virusun aşkarlandığı ilk günlərdən qəbul edilən qərarlar və karantin rejiminin tətbiqi nəticəsində vəziyyəti nəzarət altında saxlamaq mümkün oldu. Pandemiyanın dalğalarının yeni yayılmağa başladığı dönəmlərdə Azərbaycan koronavirusa qarşı mübarizəyə qoşulmaqla ortaya çox ciddi nəticələr, nümunələr qoydu. Lakin bu müsbət nəticələr əhalinin bir qisminin laqeydliyi, məsuliyyətsizliyi, karantin qaydalarına əməl etməməsi nəticəsində mənfiyə doğru dəyişdi. Xüsusi karantin rejimindəki məhdudiyyətlərin bəzisi aradan qaldırıldığı üçün əhali arasında virusa yoluxmada artım müşahidə olundu. Hazırda Azərbaycanda koronavirusa gündəlik yoluxma sayı 500-ə yaxınlaşıb. Bu isə indiyə qədərki statistikada pik göstəricidir. Ümumi yoluxma sayı isə 13 mini ötüb. Yoluxma, virusla xəstələnmə sayının artması daha ciddi karantin rejimi tədbirlərinin tətbiqini zəruri etdi. Nəticədə Nazirlər Kabineti yanında Operativ Qərargah karantin rejiminin yenidən sərtləşdirilməsi ilə bağlı qərar qəbul etdi. Yeni növ koronavirus infeksiyasının yayılma sürətinin azaldılması, habelə onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə xüsusi karantin rejiminin sərtləşdirilməsini təmin etmək üçün Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Yevlax, Masallı, Cəlilabad şəhərlərinin və Abşeron rayonunun ərazisində 21 iyun saat 00:00-dan 5 iyul saat 06:00-dək məhdudiyyətlər tətbiq edildi.

### "Son vaxtlar asimptomatik xəstələrlə az rastlaşırıq"

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva iyunun 20-də keçirilən brifinqdə bu barədə danışarkən bildirmişdi ki, virusun mutasiyası baş verdiyindən hazırda müşahidə edilən xəstəlik daha ağırdır. İndiki günlərdə COVID-19-a yoluxmuş xəstələr mart-aprel aylarında yoluxmuş xəstələrdən çox fərqlənir. Artıq xəstəliyə yoluxmaq yaşdan asılı deyil.

Şöbə müdirinin sözlərinə görə, vətəndaşların normal sosial həyatlarına qayıtması tibbi maskasız mümkün olmayacaq. Tibbi maska müəyyən müddət həyatımızın bir parçası olacaq. Bununla bərabər, sosial məsafəni, əl gigiyenasını da gözləmək vacibdir: "Qapalı məkanlarda insanların kütləvi toplaşmasına bir müddət yol verilməyəcək. Bəlkə də Bakıda insanlar bu qaydalara nisbətən daha ciddi yanaşır, maskadan istifadə edirlər. Təəssüf ki, rayonlarda sanki virus yoxmuş kimi hərəkət edirlər. Sanki bu virus yalnız Bakıda, Sumqayıtda, Lənkərandadır. Bu, belə deyil. Virus sərhəd, yaş və sosial təbəqə tanımır. Virus bir insandan başqasına yoluxmaqda davam edir. Son vaxtlar əvvəlki aylardan fərqli olaraq asimptomatik xəstələrlə az rastlaşırıq. Orta yaşlı və cavan xəstələrdə çox ciddi fəsadlarla keçən respirator xəstəlik, ikitərəfli pnevmoniyalar görürük. Test nəticəsi neqativ çıxan və ya hələ açıqlanmayan, amma kliniki əlamətləri COVID-19 kimi olan xəstələrimizin də sayı çoxdur. Hər kəsdən vətəndaş məsuliyyəti göstərməyi xahiş edirik. Bu sahədə hamımız bir yerdə mübarizə aparmalıyıq, çünki xəstəliyin spesifik müalicəsi olmadığından ondan ancaq qorunmalıyıq. Hər kəs özünü və ailəsini qorumalıdır. Bu mübarizədə başqa yol yoxdur".

### "E-Təbib" koronavirusun yayılmasını azaltmağa kömək edir

Ətrafdakıların potensial virus daşıyıcısı olub-olmaması barədə xəbərdar edəcək "E-Təbib" mobil tətbiqi istifadəyə verilib. Bütün mobil operator istifadəçiləri üçün pulsuz olacaq "E-Təbib" koronavirusun yayılmasını azaltmağa kömək edən mobil tətbiqdir. Bu mobil tətbiqə qoşularaq COVID-19 infeksiyasının yayılmasının qarşısının alınmasına öz töhfənizi verə bilərsiniz. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin məlumatında bildirilir ki, siz ictimai yerlərdə olarkən ətrafınızdakı insanların potensial virus daşıyıcısı olub-olmaması barədə "E-Təbib" vasitəsilə xəbərdar ediləcəksiniz. Təsadüfən infeksiyanın daşıyıcısı ilə əlaqəniz olubsa (məsələn, sırada, dükanda və s.), sizə bildiriş göndəriləcək və laboratoriya testinə dəvət ediləcəksiniz.

"E-Təbib" "bluetooth" texnologiyası əsasında işləyir, yaxınlıqdakı digər tətbiq istifadəçiləri ilə əlaqə qurur. Bu tətbiqdən nə qədər çox insan istifadə etsə, bütün yoluxanları daha dəqiq və daha sürətli şəkildə müəyyən etmək mümkün ola bilər. Tətbiqin köməyi ilə bir toxunuşla Koronavorus Əleyhinə Qaynar xətlə əlaqə saxlamaq, statistik məlumatlar almaq və müvafiq yardım, həmçinin müxtəlif bildirişlər və xəbərlər almaq mümkündür.

Tətbiqi asanlıqla telefonunuza yükləyə bilərsiniz. İstifadə etdiyiniz sistemdən asılı olaraq, tətbiqi "Play Market" və ya "AppStore" vasitəsilə "E-Tabib" və ya "E-Təbib" yazaraq smartfonunuza endirin. Tətbiqi işə salın və mobil telefon nömrənizi daxil edin. SMS vasitəsilə göndəriləcək təsdiq kodunu müvafiq xanalara yazın. "Bluetooth" qurğusunu işə salın. "E-Təbib" tətbiqi mobil telefon nömrənizdən başqa heç bir şəxsi məlumatınızı toplamır.

### Karantin rejimini pozanlar cəzalandırılırlar

Təəssüf ki, bəzən vətəndaşlar nəinki koronavirusun yayılmasını azaltmağa kömək edir, hətta özlərini qorumaq baxımından da məsuliyyətsizliyə yol verir, karantin rejimini pozur, bununla da həyatlarını riskə atmış olurlar. Nəticədə, müvafiq icazəsi olmayan şəxslər müəyyən olunaraq, barələrində qanunvericiliyə uyğun tədbirlər görülür.

Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polis İdarəsi (BDYPİ) sərt karantin rejimini pozaraq Bakıya girişə və çıxışa cəhd edən sürücülərin və cərimələnən şəxslərin sayını açıqlayıb. Belə ki, iyunun 21-i saat 00:00-dan iyunun 22-si saat 00:00-dək ölkə ərazisində İnzibati Xətalar Məcəlləsinin (İXM) 211.1-ci maddəsinin tələbini pozduğuna görə 1440 nəfər, İXM-nin 211.2-ci maddəsinin tələbini pozduğuna görə 132 nəfər olmaqla, ümumilikdə 1572 nəfər inzibati məsuliyyətə cəlb edilib.

Ələt-Astara, Bakı-Şamaxı və Bakı-Quba yollarında qurulan karantin postlarında hərəkətinə icazə verilməyən 900 nəqliyyat vasitəsinin sürücüsü isə aşkarlanaraq geri qaytarılıb.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin məlumatına görə isə, məhdudiyyətlərin ilk günündə evdən çıxmaq istədiklərinə dair vətəndaşlar tərəfindən icazə əldə etmək üçün SMS-lə 8103 qısa nömrəsinə 511419 SMS göndərilib ki, bunlardan da 149177-si, yəni 29 faizi aidiyyəti olmayan məzmunla bağlı göndərildiyindən təsdiq cavabı almayıb. SMS-lərin 99.4 faizi 1 dəqiqə ərzində cavablandırılıb.

### İndiki məqamda ən yaxşı qorunma yolu izolyasiyadır

İkihəftəlik sərtləşdirilmiş karantin rejiminin tətbiqində məqsəd xəstəliyin geniş yayılmasının qarşısını almaq, vətəndaşların sağlamlığını qorumaqdır. Bəli, vətəndaşların koronavirus infeksiyasından qorunması bu gün Azərbaycan dövləti üçün ən prioritet məsələdir. Ölkəmiz qlobal təhlükənin öz əhalisinə təsirini mümkün qədər minimuma endirmək üçün ən səmərəli tədbirlər həyata keçirir. Lakin bəzi vətəndaşlar özünütəcridin xəstəliyin qarşısının alınması üçün ən vacib amil olduğuna əhəmiyyət vermir, karantin rejimini pozaraq, zərurət olmadığı təqdirdə evdən çıxırlar. Unudurlar ki, hər bir məsuliyyətsiz davranış, hər bir qayda pozuntusu xəstələnmək və öz həyatını, ətrafını risk altına atmaq deməkdir. Hər evdən çıxmaq, hər bir kənar şəxslə təmas infeksiyaya yoluxma və ölüm riski deməkdir. İndiki məqamda bu bəladan ən yaxşı qorunmaq yolu karantin və izolyasiyadır. Vətəndaşlar özlərini, yaxınlarını düşünərək maksimal dərəcədə anlayışlı olmalı, qoyulan tələblərə, verilən tövsiyələrə etinasız yanaşmamalı, bəsit gigiyenik qaydalara riayət etməli, maska taxmalı, sosial məsafəni saxlamalı, ehtiyac olmadıqda evdən çıxmamalıdır. Yalnız bu zaman yoluxma zəncirini qırmağa kömək edə, virusa birgə qalib gələ bilərik.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

Danışır "ön cəbhə"nin fədakarları

# Koronavirus "qriplər ailəsi"nin ən təhlükəlisidir

## Azərbaycan dövlətinin qabaqlayıcı tədbirlərlə pandemiyadan az itki ilə çıxacağına Ümumdünya Səhiyyə Təşkilatı da şübhə etmir

Kütləvi qırğına səbəb olan pandemiya heç də təsadüfi yaranmır və yayılmır. Qarşısının alınması isə dövlətlərə heç də asan başa gəlmir. İnsanlara psixoloji sarsıntılarla zərbə vuran virus ölkələrin iqtisadiyyatını da iflic edir.



Bu gün də dünyanı belə bir sual çaş-baş qoymaqdadır: nədir bu COVID-19?! Onun yayılması necə baş verir və bunun üçün dövlət tərəfindən hansı tədbirlər görülür, insanlar ondan necə qorunmalı, infeksiyanın yayılmaması üçün nələrə fikir verməlidir?

Ümumiyyətlə, COVID-19 yeni bir virus deyil, o, ötən əsrin 70-80-ci illərindən tibbə məlumdur. Əvvəllər bu virus heyvanlarda, xüsusən də yarasalarda və ilanlarda yayılmışdı. Və belə deyək, heç insana yoluxmurdu. Sonra bu virusda bir mutasiya baş verdi. Bunun nəticəsində virus insana da asanlıqla nüfuz etdi və mütəxəssislər tərəfindən COVID-19 adlandırıldı. O, hava-damcı yolu ilə yayılır.

Ümumiyyətlə, viruslar yayılmasına və insana göstərdiyi təsirə görə bir-birindən fərqlənir. Qan, qida, hava-damcı yolu ilə yoluxan viruslar var. Bunların sırasında ən qorxulusu hava-damcı yolu ilə yayılanlardır. Çünki qısa müddət ərzində geniş diametri əhatə edir. Qanla yoluxan viruslardan hepatiti misal çəkmək olar. Hepatiti olan insanlar ya daşıyıcı, ya da xəstə olurlar. Buna baxmayaraq həmin xəstələrin yoluxma faizi çox azdır. Hepatit virusu daşıyan insanların onu digərlərinə yoluxdurması yalnız qan vasitəsilə baş verir (məsələn, stomatoloji prosedur zamanı hər hansı tibbi ləvazimatın, həmçinin şprislərin düzgün dezinfeksiya edilməməsindən).

Qida ilə keçən viruslar da var ki, bunlar əhəmiyyət kəsb edən qədər yoluxdurmaya malik deyillər. Bu xəstəliyi daşıyan insanın yemək zamanı istifadə etdiyi əşyalar, məsələn, qab-qacaqlar xüsusi xlorlu məhlullarla yuyulduqda bu virus ölmüş sayılır və başqa birinə yoluxdurma qabiliyyəti itmiş hesab olunur. Lakin hava-damcı vasitəsilə keçən viruslar çox qorxuludur. Yəni bunlarda təmas, münasibət çox mühümdür. Belə olduğu təqdirdə yoluxma və yoluxdurma çoxalır. Virusun diametri geniş ərazini əhatə edir. Əlbəttə, qarşısı alınmazsa, çox ciddi fəsadlara səbəb ola bilir.

Bəs qorunmaq üçün nə etməli?! Virusdan qorunmaq üçün izolyasiya tədbirlərinə xüsusi diqqət verilməli və buna ciddi şəkildə riayət edilməlidir. Öncə ara məsafəsi saxlanmalıdır. Unutmayaq ki, yoluxmuş bir şəxs yanımızda asqırarsa, virus asanlıqla bizə də keçə bilər. İkincisi, şəxsi gigiyena qaydalarına mütləq şəkildə əməl etməliyik. Yəni səthlərlə təmas zamanı əllər bir saatdan bir sabun tərkibli maye ilə yuyulmalı, dezinfeksiyaedici və ya spirtli məhlulla təmizlənməlidir. Virus daşıyan biri asqırdığı zaman əli ilə ağzını tutmalıdır. Amma digər tərəfdən bildiyimiz kimi, bu zaman virus onun əlinə hopur. Buna görə də o, başqa bir şəxslə əllə görüşdüyü təqdirdə, qapının dəstəyini tutduğu halda, liftin düyməsini basanda, pulla təmasda da yoluxma ehtimalı çox olur. Həmin şəxs əlini ağzına, burnuna, gözünə vurduğu halda virus çox asanlıqla ona keçə bilir.

Bu virus oturaq vəziyyətdə (yəni səthlər üzərində bir neçə saat müddətində qala bilir) olarkən, təmasla və yaxın əlaqə zamanı keçdiyi üçün mütləq şəkildə şəxsi gigiyena və məsafə saxlama qaydalarına əməl etmək əsas şərtlərdəndir. Virus bir neçə saat ərzində yenicə yoluxmuş insanın burun, udlaq hissəsində qalır. Bunun qarşısını almaq üçün isə bolluca maye içmək, burun və udlağı davamlı şəkildə qarqara etmək mütləqdir. Həmçinin burun damcılarından istifadə də lazımdır.

Adətən deyirlər ki, bu virusa yaşlı insanlar çox yoluxur. Çünki burada əsas rol oynayan immun sistemidir. Yaşlı insanlarda digər xəstəliklər, məsələn, şəkərli diabet, arterial hipertenziya, ürək, böyrək çatışmazlığı olduğu üçün müqavimətləri düşür. Ona görə də bu insanlar infeksiyaya asanlıqla yoluxa bilir.

Lakin son vaxtlar pandemiyanın tüğyanı nəticəsində yoluxmaların yaş müqayisəsi göstərdi ki, əslində, koronavirus hər kəsi bu bəlaya sala bilmək gücünə malikdir. Hətta yoluxanların və ölənlərin arasında iki-üç yaşlılara da təsadüf edilir. Ona görə də bəzi valideynlər uşaqların vaxtında peyvənd edilməsinə laqeyd qalmamalıdırlar. Dünya statistikası göstərir ki, vaxtında vərəm əleyhinə istifadə olunmuş vaksinlər vurulan ölkələrdə bu virusun daha geniş yayılma riskləri azdır.

Başqa bir sual da bu gün aktuallığı ilə diqqəti cəlb edir: spirtli içkilərdən müəyyən dozada istifadə virusu məhv edirmi? Tam məsuliyyətlə deyilməlidir ki, əksinə, heç bir dozada spirtli içkilər virusu məhvetmə qabiliyyətinə malik deyil, üstəlik, o, müqaviməti aşağı salır ki, bu da immun sisteminin zəifliyinə, virusun daha güclü təsir göstərməsinə münbit şərait yaradır.

Buradan belə nəticəyə gəlmək olur ki, virus istənilən yaş qrupuna aid insanlara keçə bilər. Lakin 100 yoluxanın 20-si bu pandemiyanı ağır keçirir, simptomları çox olur və ölümlə nəticələnir. Statistika onu da göstərdi ki, virusun əhalisi daha çox və sıx olan yaşayış məntəqələrində yayılma ehtimalı güclüdür. Paytaxt Bakı əhalisi sıx olan şəhərlər sırasındadır. Ona görə də Azərbaycan hökuməti, ilk növbədə, izolyasiya, yəni özünütəcridi vacib hesab edərək respublikada müvəqqəti karantin rejiminin tətbiqinə keçdi. Yoluxanlarla sağlam insanların təmasına qadağa qoyuldu. Ölkə vətəndaşlarının hətta karantin rejiminə ciddi əməl etmələri üçün müəyyən təsir vasitələrindən istifadəyə keçildi.

Bu günlərdə Nazirlər Kabineti yanında Operativ Qərargahının mətbuat üçün keçirdiyi növbəti brifinqdə elan edildi ki, pandemiyanın ölkənin digər ərazilərində də yayılması və insanların yoluxma hallarının kəskin şəkildə artması vətəndaşların məsuliyyətsizliyi, ondan qorunmaq üçün verilən tövsiyələri saymamazlıq səviyyəsində unutması deməkdir ki, bu da vəziyyəti ciddi həddə gətirib çıxarır. Buna görə də hər kəs bu məsələdə öz məsuliyyətini dərk etməlidir. Sərtləşdirilmiş rejim şəraitində müvəqqəti yaşamaq, dözmək, sosial izolyasiyanı qəbul etmək, sabahkı təhlükədən uzaqlaşmaq anlamını verməlidir. Bunun üçün panikaya uymaq, əsassız informasiyalara meyil etmək daha təhlükəlidir. Paytaxt Bakıya və buradan rayonlara gizli-aşkar hərəkət etməyə çalışmaq, bir sözlə, qəbul edilmiş karantin qaydalarını pozmaq yalnız cərimələnməklə bitmir, ondan daha vahiməlisi yoluxmaya münbit şərait yaratmaqdır. Vətəndaşlarımız özlərini müvəqqəti təcrid şəraitinə uyğunlaşdırmalıdırlar.

Bütün bunlar dövlətin yürütdüyü sosial siyasətdir. Hər kəs bu sahədə mütəxəssis olmaya, vəziyyəti dərk etməyə bilər. Lakin bilərəkdən qayda-qanunlara əməl etməyib, üstəlik, səni qoruyan polisi açıq-aşkar təhqir etmək heç bir məntiqə sığmır.

Bir sözlə, bütün dünyanı bürüyən qlobal pandemiya şəraitində ölkəmizin vətəndaşları təmkin nümayiş etdirməli, ölkədaxili karantin tədbirlərinə dəstək olmalı və özünütəcrid qaydalarına riayət etməlidirlər.

***Qardaşxan MƏMMƏDOV,***
***"Stimul" hospitalının direktoru, həkim-cərrah***

# Yaşamaq üçün onların sizə ehtiyacı var

## Koronavirusdan sağalan həmvətənlərimizə xilas çağırışı

Bəlkə də, bəzilərimiz COVID-19-un varlığına inanmır... Bəlkə də, koronavirusun nə dərəcədə təhlükəli olduğunun bir o qədər fərqində deyilik...

Bu virusa yoluxanların necə əzab çəkdiyini, ağrılar içərisində qıvrıldığını, həyatla ölüm arasında necə ağır çarpışma apardığını bilmirik...

Amma siz bilirsiniz, sizə məlumdur, siz şahidsiniz...

Təhlükəli və gözəgörünməz bəlanın varlığına da, bir göz qırpımında insana yoluxub nəfəsini boğduğuna da bələdsiniz...

Siz bu ölüm kabusunu canınızla, varlığınızla hiss etmiş və amansız mübarizədə ona qalib gəlmiş güclü insanlarsınız...

Koronavirusdan sağalan əziz həmvətənlərimiz, elə bu yaşam çağırışımız da sizədir: COVID-19-a yoluxmuş və vəziyyəti ağır olan yüzlərlə insanın hayına yetişin, onları ölümə tərk etməyin...

Yaşamaq üçün onların sizə ehtiyacı var, donor olub həyata tutunma şanslarını artırın...

### Vəziyyəti ağır xəstələrin effektiv müalicəsi

Koronavirusa yoluxan xəstələrin sağaldılması istiqamətində həyata keçirilən effektiv müalicə üsullarından biri Konvalesent plazma müalicəsidir.

Artıq bir neçə müddətdir ki, sözügedən müalicə üsulu Azərbaycanda da tətbiq edilməyə başlanılıb. Bu müalicə üsulunu tətbiq etməkdə məqsəd koronavirusa yoluxmuş və sağalmış insanların qanında olan anticisimlərdən istifadə etməkdir. Belə ki, həmin insanın qanında koronavirusa qarşı anticisimlər yaranır ki, bu da orqanizmin xəstəliklə mübarizəsinə dəstək olur.

Bu barədə TƏBİB-in məlumatında deyilir ki, Konvalesent plazma müalicəsi COVID-19 diaqnozu ilə müalicə alıb sağalmış xəstələrdən Mərkəzi Qan Bankı tərəfindən toplanan qan plazmasının ağır vəziyyətdə olan xəstələrdə istifadəsi ilə həyata keçirilən müalicə metodudur.

COVID-19 diaqnozu laborator olaraq təsdiqlənib, sonradan sağalan şəxslər, klinik olaraq tam sağalmadan ən azı 14 gün sonra, 2 dəfə test nəticəsi neqativ olan şəxslər, 18-60 yaş arası könüllülər və digər uyğun şəxslər koronavirus xəstələri üçün plazma donoru ola bilərlər.

Uyğun donor qan donorluğunda olduğu kimi, razılıq forması doldurur və müayinə edilir. Daha sonra donordan qan alınaraq laborator testlər həyata keçirilir. Test nəticələri uyğun olan donorlardan aferez metodu ilə plazma alınır. Prosedur 45-60 dəqiqə davam edir. Donordan immun plazma 1 ay ərzində ən çox 3 dəfə, ilk plazmanın götürüldüyü tarixdən etibarən 7-10 gün fasilə ilə alına bilər.

### Bu prosedurun donorun sağlamlığı üçün heç bir riski yoxdur

Məlumatda vurğulanır ki, bu prosedurun donorun sağlamlığı üçün heç bir riski yoxdur. Sağalan xəstələrin məlumatları TƏBİB tərəfindən Mərkəzi Qan Bankına göndərilir və plazma donorları Mərkəzi Qan Bankı tərəfindən seçilir. Könüllü donorlar müəyyən olunmuş növbəli sistem əsasında Mərkəzi Qan Bankına dəvət olunur. Xəstəxanadan gələn tələblərə əsasən plazmalar göndərilir. Plazma istəyi xəstə yaxını və ya xəstənin özü tərəfindən edilə bilməz.

Bu müalicə tam ödənişsizdir və bütün xərclər TƏBİB tərəfindən qarşılanır.

"Plazma üsulu ilə müalicə alan koronaviruslu xəstələrin səhhətində irəliləyiş var" söyləyən Milli Hematologiya və Transfuziologiya Mərkəzinin icraçı direktoru Valeh Hüseynov ötən cümə günü bildirib ki, ölkəmizdə tətbiq edilən bu müalicə üsulu müsbət nəticə verir.

İcraçı direktor təəssüflə onu da qeyd edib ki, bu xəstəlikdən sağalanlardan plazma üçün müraciət edənlərin sayı olduqca azdır.

V. Hüseynovun sözlərinə görə, ölkəmizdə 6 mindən çox COVID-19-dan sağalmış insan var. Amma onlardan cəmi 12 nəfər plazma vermək üçün müraciət edib.

Həmin insanlardan alınmış plazmalardan 36 xəstənin müalicəsində istifadə edilib. İyunun 19-na qədər isə 41 vahid ümumi plazma üsulundan istifadə edilib.

### Yüzlərlə insanın yaşam şansı sizin əlinizdədir

Elə bu səbəbdən də, vaxtaşırı koronavirus infeksiyasından sağalan xəstələrə müraciətlər edilərək qan (plazma) donoru olmağa çağırılır. Hazırda süni tənəffüs cihazına bağlı və vəziyyəti kritik olan xəstələrin olduğu bildirilərək, bu çətin günlərdə bir-birimizə dəstək olmaqla COVID-19 pandemiyasına qalib gəlməyin mümkünlüyü vurğulanır.

Bəli, indi yüzlərlə ağır vəziyyətdə olan xəstəyə nəfəs vermək, yaşam şansı yaratmaq sizin əlinizdədir. Bütün bəlalara, təhlükələrə həmrəylik, insanpərvərlik, darda qalana əl uzatmaq kimi bəşəri hisslər sayəsində qalib gəlmək mümkündür.

Elə könüllü olaraq göstərəcəyiniz bu dəyərli kömək sayəsində siz də yüzlərin, minlərin həyatını qurtaran qəhrəmana, xilaskara çevrilə bilərsiniz...

Yoxdan var eyləmək, insanlara can, ruh bəxş etmək yalnız Tanrıya məxsusdur, amma zamanın yaratdığı bu qeyri-adi məqamdan istifadə edərək siz də can verən, yaşadan, həyata döndürən ola bilərsiniz...

Çağırışımıza səs verin, əziz həmvətənlərimiz, xəstə çarpayılarında nəfəssiz qalan o insanların harayına yetişin...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanda koronavirusa daha 478 nəfər yoluxub, 369 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 478 yoluxma faktı qeydə alınıb, 369 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 13 min 207 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 7168 nəfər müalicə olunaraq sağalıb, 161 nəfər vəfat edib. Aktiv xəstə sayı 5878 nəfərdir.

Ötən müddət ərzində 426 min 394 test aparılıb. Dünənki test sayı isə 4345-dir.

# FHN vətəndaşlara müraciət edib

Fövqəladə Hallar Nazirliyi (FHN) Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, yeni növ koronavirus (COVID-19) infeksiyasının yayılma sürətinin azaldılması, habelə onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə respublikanın bir sıra yaşayış məntəqələrində 2020-ci il iyunun 21-i saat 00:00-dan iyulun 5-i saat 06:00-dək xüsusi karantin rejimi sərtləşdirilməsi şəraitində çimərliklərdən istifadənin qarşısının alınması ilə bağlı əhaliyə müraciət edib.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sərtləşdirilmiş xüsusi karantin rejimi müddətində vətəndaşların qaydalara əməl etməsi ilə əlaqədar çimərliklərdən istifadənin qarşısının alınması məqsədilə nazirliyin müvafiq qüvvələri Daxili İşlər Nazirliyi ilə birgə fəaliyyətdə Xəzər dənizinin Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu sahili boyu həm quruda, həm də qayıqlarla dənizdə, eləcə də Lənkəran, Masallı və Cəlilabad rayonlarında patrul xidməti aparır.

Nazirlik vətəndaşları bir daha ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə çərçivəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin bütün qərar və tövsiyələrinə ciddi riayət etməyə çağırır.

# Azərbaycan ziyalısının ən gözəl xüsusiyyətlərini özündə cəmləşdirən alim

Professor Sayalı Sadıqova geniş yaradıcılıq qabiliyyətinə, zəngin erudisiyaya, dərin biliyə malik, xalqa və onun mədəniyyətinə sonsuz məhəbbət bəsləyən fədakar ziyalı, ictimai xadimdir. O, bütün həyatını, yaradıcılıq qüvvəsini Azərbaycan dilçiliyinin inkişafına sərf etmiş, elmin, təhsilin və mədəniyyətin tərəqqisinə, ana dilimizin saflığının qorunmasına çalışmışdır.



S.Sadıqova 2000-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunda Terminologiya şöbəsinin müdiridir. 2001-ci ildən AMEA Rəyasət Heyəti yanında Terminologiya Komissiyasının sədr müavini və məsul katibidir. Bu illərdə Terminologiya Komissiyasının qərarı ilə 140-a qədər terminoloji lüğət nəşr olunmuşdur. 2002-ci ildən Terminologiya Komissiyasının xətti ilə nəşr olunan "Terminologiya məsələləri" toplusunun redaktorudur.

Professor S.Sadıqovanın elmi tədqiqatlarının əsas mövzu və istiqamətlərinə ümumi dilçilik, terminologiya, müasir Azərbaycan ədəbi dili, onomastika, bədii əsərlərin dili, tətbiqi dilçilik, ədəbi dil tarixi sahələri daxildir.

Terminologiyanın dilçiliyin müstəqil bir sahəsi kimi tədqiqində və inkişafında, nəzəri problemlərinin araşdırılmasında görkəmli alimin mühüm xidmətləri var. Müəllifin "Azərbaycan dilində fizika-riyaziyyat terminologiyasının formalaşması və inkişafı", "Azərbaycan dilində izahlı fizika-riyaziyyat terminləri lüğəti", "Azərbaycan dili terminologiyasının nəzəri problemləri", "Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişafı", "Терминологические словосочетания в Азербайджанском литературном языке", "Müasir Azərbaycan ədəbi dilində termin yaradıcılığı prosesi", "Azərbaycan dilinin terminologiyası", "Dilçiliyin nəzəri problemləri", "Azərbaycan dilində terminologiyanın standartlaşdırma formaları", "Müstəqillik illərində terminologiyanın inkişafı", "Azərbaycan Xalq Cümhuriyyəti və milli ədəbi dilin inkişaf tarixi" (1918-2018) dilçilik elminə qiymətli töhfələrdir. S.Sadıqova terminologiyanın nəzəri problemlərinə, eləcə də dilçiliyin başqa sahələrinə dair 26 monoqrafiyanın, 300-dən artıq elmi məqalənin və elmin müxtəlif sahələri ilə bağlı Terminologiya Komissiyasının xəttilə nəşr olunan 50-dən artıq terminoloji lüğətin redaktoru və ön sözünün müəllifidir. Elmi fəaliyyəti vəhdət halında götürən tədqiqatçı nəzəri əsərlərlə yanaşı "İzahlı dilçilik terminləri lüğəti" (Bakı, Elm, 2018, 912 səh.), "İzahlı yeni terminlər lüğəti" (iki cild, Bakı, Elm, 2016, 2018, 248 səh.), "Azərbaycan dilində şəxs adlarının izahlı lüğəti" (Bakı, Elm, 2016, 233 səh.) kimi bir sıra lüğətlərin tərtibçisidir. Onun tərtib etdiyi "Azərbaycan dilində şəxs adlarının izahlı lüğəti" respublikamızda fəaliyyət göstərən qeydiyyat idarələrində yeni doğulan körpələrə adların qoyulmasında əsas vəsaitdir.

Alimin dilçilik sahəsindəki uğurları ölkəmizin hüdudlarından kənarda da nüfuz qazanmışdır. Əsərləri Rusiya, Türkiyə və İranda nəşr olunmuşdur. S.Sadıqova bunlarla bərabər respublikada elmi konfranslarda, eləcə də Türkiyə, Qazaxıstan və İranda keçirilmiş konfrans və simpoziumlarda maraqlı məruzələrlə çıxış etmişdir. 2011-2012-ci illərdə Türkiyədə keçirilən Dil qurultayında nümayəndə kimi iştirak etmişdir.

S.Sadıqova uzun müddət Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ekspert Şurasının üzvü olmuş, hazırda Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirmə Şurasının, Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Dilçilik üzrə Müdafiə Şurasının sədr müavini və Dilçilik İnstitutunda Elmi seminarın sədridir.

Hər bir alimin fəaliyyətinin bir hissəsini çalışdığı sahə üzrə elmi kadrların yetişdirilməsi təşkil edir. Sayalı Sadıqova bu illər ərzində güclü bir ziyalı mühiti yarada bilmişdir. Bu da onun işgüzarlığından, təşkilatçılıq bacarığından irəli gəlir. Professorun rəhbərliyi ilə dilçiliyin müxtəlif problemləri ilə bağlı 14 nəfər filologiya üzrə fəlsəfə doktoru, 2 nəfər filologiya üzrə elmlər doktoru alimlik dərəcəsi almışdır.

Görkəmli alim Terminologiya Komissiyasının xəttilə Azərbaycan dilinin təkcə respublikada deyil, ölkədən kənarda qorunması istiqamətində də mühüm işlər aparır. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının dəvəti ilə İstanbul şəhərində 16 noyabr 2012-ci ildə olan ilk iclasında iştirak etmiş, türk dillərinin vahid terminologiyasının yaradılması sahəsində Ekspertlər Komitəsinin və Ortak Terminoloji Kurulun üzvü seçilmişdir. Türk dillərinin ortaq əlifbasının qəbul edilməsi və prinsiplərinin hazırlanmasında iştirak etmişdir.

Professor Sayalı Sadıqova 2013-cü ildə Türki kenesi Terminologiya Komitəsinin təşkilatçılığı ilə Qazaxıstanda yaradılan Türki Akademiyasında Türk dillərinin Terminologiya məsələləri - termin yaradıcılığı prosesi ilə bağlı toplantıda iştirak etmiş və həmin komitənin üzvü seçilmişdir. O, həm də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə yaradılan Dil Komissiyasının üzvüdür.

Azərbaycan dilçilik elminin inkişafındakı xidmətlərinə görə professor S.Sadıqova 2005-ci ildə AMEA-nın 60 illiyi və 2010-cu ildə anadan olmasının 50 illiyi ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının fəxri fərmanları ilə təltif olunmuş, 2015-ci ildə elmi və təşkilati fəaliyyəti yüksək qiymətləndirilərək Azərbaycan Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalına layiq görülmüşdür. S.Sadıqova 2017-ci ildə AMEA Nəsimi adına Dilçilik İnstitutunun Elmi Şurasının qərarı ilə "İlin alimi", Azərbaycan dilinin qorunmasının təmin edilməsindəki fəaliyyətinə, vətənə və xalqa layiqli xidmətlərinə görə "İlin nüfuzlu ziyalısı" ali media mükafatına, 2018-ci ildə yaradıcılıq fəaliyyətinə görə KİV və Həmkarlar İttifaqı Rəyasət Heyətinin qərarı ilə "Qızıl qələm" media mükafatına layiq görülmüşdür.

Ömür səhifələri ilbəil vərəqləndikcə, insan həyat yolu adlandırılan zaman anlayışının dəyərini daha dərindən dərk etməyə başlayır, şəxsiyyətlərin elm, xalq üçün önəmini daha çox anlayır. Ötən illər ərzində keçdiyi şərəfli ömür yolu ilə gələcək nəsillərə örnək ola bilən, parlaq elmi yaradıcılığı ilə həyat salnaməsi yaradan professor Sayalı Sadıqova belə ziyalı xanımlarımızdandır. Dilçiliyin ən mühüm problemlərinə - terminologiya, leksikologiya, dil tarixi, onomastikaya aid əsərləri, dövlət dilinə aid mətbuat səhifələrində tez-tez dərc olunan məqalələri, kütləvi informasiya vasitələrində çıxışları respublikamızın elmi ictimaiyyəti tərəfindən maraqla qarşılanmışdır. O, Azərbaycan dilçiliyinin müxtəlif sahələrinə həsr edilmiş coxşaxəli yaradıcılığı, yenilikçi olması ilə daim diqqət mərkəzindədir.

Alimin araşdırmalarında qoyulan problemlər - terminlərin mahiyyəti, dilin leksik sistemində yeri, terminlərin yaranma prosesi, yaranma yolları, struktur-semantik xüsusiyyətləri, terminlərin terminoloji lüğətlərdə əksi, verilmə prinsipləri və s. məsələlər öz aktuallığı ilə diqqəti cəlb edir. Terminologiyanın nəzəri məsələlərindən bəhs edərkən müəllif müasir dilçilikdə mübahisəli olan problemlərə öz münasibətini bildirərək məntiqi cəhətdən onları təhlil etmişdir.

Müəllifin tədqiqatlarından aydın olur ki, Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişafı tarixi qədimdir. Çünki termin yaradıcılığı cəmiyyətin məişəti, ictimai həyatı, onun elmi-iqtisadi və mədəni inkişafı ilə sıx bağlıdır. Hazırkı dövrdə terminoloji sistemə daxil olan leksik vahidlərin bütövlükdə üzə çıxarılıb tədqiq olunması, onların yaranma tarixinin müəyyənləşdirilməsi, etimoloji izahının verilməsi əhəmiyyətli dilçilik problemi olduğu qədər də mürəkkəbdir. Müəllifin Azərbaycan dilçiliyinin ən aktual problemlərinə həsr olunmuş tədqiqatlarında terminlərin yaranma qaynaqları, təşəkkülü, formalaşması və inkişafı problemi öz həllini tapmışdır. Xüsusilə Azərbaycan dilçilik tarixində aktual bir problemin - elmi dilin inkişaf tarixi diaxronik səpkidə araşdırılmışdır.

Sayalı Sadıqova həm də yüksək insani keyfiyyətləri, səmimiyyəti və sadəliyi ilə seçilən, böyük ürəyə sahib insanlardandır. Bu haqda söhbət açarkən, xüsusilə onun AMEA-nın əməkdaşlarına, doktorantlarına, tələbələrinə və gənclərə olan münasibətini qeyd etmək yerinə düşər. Təbiətcə son dərəcə təvazökar, həm də tələbkar şəxsiyyət olan Sayalı xanım hər zaman tələbələrinin müstəqil fikirlərinə hörmətlə yanaşır, onları ruhlandırır, elmə həvəsləndirir və uğurlarına sevinir. O, gənc kadrların problemlərinə qayğı və diqqətlə yanaşır.

Elmin çətin yollarında çoxlarına kömək göstərən, səmimiyyəti, xeyirxahlığı, müstəsna qayğıkeşliyi ilə daim sevilən Sayalı Sadıqovaya yaradıcılıq uğurları arzulayırıq.

***Səbinə ALMƏMMƏDOVA,***
***filologiya elmləri doktoru***

# Azərbaycanın Milli Qəhrəmanı Eltun İsgəndərovun xatirəsi anıldı





Samux rayonunda Azərbaycanın Milli Qəhrəmanı Eltun Xaləddin oğlu İsgəndərovun anım günü keçirilmişdir. Əvvəlcə tədbir iştirakçıları qəhrəmanın qəbrini ziyarət edərək üzərinə tər qərənfillər düzmüşlər.

Sonra Milli Qəhrəmanın həyat və fəaliyyətindən bəhs edən muzeylə tanışlıq olmuşdur. Qeyd edilmişdir ki, E.İsgəndərov 2009-cu il iyunun 18-də Cəlilabad rayonu istiqamətində sərhəd pozucuları ilə döyüşə girərək onlardan bir neçəsini məhv etmişdir. Belə ki, döyüşün ağır yerində sərhəd pozucuları bizim sərhədçilərin dayandığı mövqeyə qumbara atmışdılar. Bunu görən cəsur gənc dərhal özünü qumbaranın üzərinə ataraq həyatı bahasına əsgər və zabitlərimizi ölümdən xilas etmişdir. O, bu hərəkəti ilə Azərbaycan oğullarının vətən uğrunda lazım gələrsə canlarından belə keçə biləcəklərini sübut edərək əsl nümunə göstərmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əsgərimizin göstərdiyi bu şücaəti yüksək dəyərləndirərək 25 iyun 2009-cu il tarixli sərəncamı ilə İsgəndərov Eltun Xaləddin oğluna ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adını vermişdir.

Tədbirdə iştirak edən Milli Qəhrəmanın atası Xaləddin İsgəndərov oğlunun göstərmiş olduğu igidliklə fəxr etdiyini, Azərbaycanda Eltun kimi vətənpərvər gənclərin sayının yüz minlərlə olduğunu vurğulamış, göstərilən diqqət və qayğıya görə dövlət başçısına öz minnətdarlığını bildirmişdir.

Sonra çıxış edən Dövlət Sərhəd Xidmətinin zabitləri qəhrəmanımızın şərəfli xidmətindən danışaraq qeyd etmişlər ki, bu gün Eltun İsgəndərovun həyatı gənclərimiz üçün əsl vətənpərvərlik nümunəsidir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Heydər Əliyev Fondunun təşəbbüsü ilə Qazaxda daha bir məktəb üçün yeni bina inşa olunur

Məlum olduğu kimi, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən ölkəmizdə təhsil sahəsinə böyük diqqət və qayğı göstərilir.

Heydər Əliyev Fondunun təhsil sahəsində "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" layihələrini həyata keçirməsi bu sahəyə olan qayğının daha bir bariz nümunəsidir. Bu layihələrin məqsədi ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, dövlətin təhsil siyasətinin həyata keçirilməsinə dəstək göstərməkdir. Sevindirici haldır ki, bu layihələrin icrası təkcə paytaxtla kifayətlənmir, respublikamızın bütün bölgələrini əhatə edir.

Son illər Qazaxda da yeni məktəb binalarının inşası, təmirə ehtiyacı olan məktəblərin əsaslı şəkildə yenidən qurulması, məktəblərin maddi-texniki bazasının gücləndirilməsi sahəsində məqsədyönlü işlər görülür. Rayonda dövlət tərəfindən təhsil sahəsinə olan qayğının əyani sübutu "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı dövlət proqramı"nın həyata keçirilməsi üzrə hazırlanmış tədbirlər planında Qazax rayonu üzrə 11 məktəb binasının əsaslı təmirinin və ya tikintisinin nəzərdə tutulmasıdır.

Şahnabat Nəsibova adına Sarıvəlli kənd tam orta məktəbi də dövlət proqramında tikintisi planlaşdırılan məktəblərdəndir. Heydər Əliyev Fondu tərəfindən reallaşan "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində artıq həmin məktəbin həyətində 220 şagird yerlik yeni binanın inşasına başlanılmışdır.

Bu ilin yanvar ayından tikintisinə başlanılan 2 mərtəbədən ibarət yeni məktəb binasında şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hər cür şərait nəzərdə tutulmuşdur. Yeni məktəbdə binanın zirzəmisi, 25 kubmetrlik içməli su anbarı, yanğından mühafizə üçün 100 kubmetrlik su anbarı, su nasosu stansiyası, qazanxana, idman zalı, akt zalı, yeməkxana və oyun meydançası da inşa ediləcək.

Artıq zirzəmidə suvaq işləri yekunlaşmaq üzrədir. Eyni zamanda birinci mərtəbənin hörgü işləri başa çatdırılmışdır.

Qeyd edək ki, rayonda Sarıvəlli kənd tam orta məktəbin tikintisi ilə yanaşı, Təhsil Nazirliyi tərəfindən Aydın Məmmədov adına Qaymaqlı kənd tam orta məktəbi üçün 180 şagird yerlik yeni bina da tikilir. Heydər Əliyev Fondu tərəfindən Xalq yazıçısı İsmayıl Şıxlının adını daşıyan 1176 şagird yerlik Kosalar kənd tam orta məktəbində aparılan yenidənqurma işləri isə yekunlaşmaq üzrədir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Baş Prokurorluq Abşerondakı məmur həbsləri ilə bağlı yayılan məlumatlara münasibət bildirib

Azərbaycan Respublikasının Baş Prokurorluğu bəzi kütləvi informasiya vasitələrində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Abşeron Rayon İcra Hakimiyyətinin bir sıra vəzifəli şəxslərinin saxlanılması barədə dəqiqləşdirilməmiş informasiyaların yayılmasına münasibət bildirib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, keçirilmiş əməliyyat-axtarış tədbirlərinin nəticəsi barədə ictimaiyyətə ətraflı məlumatın verilməsi nəzərdə tutulur. Cəmiyyətdə çaşqınlığa səbəb ola biləcək informasiyaların yayılmasının qarşısının alınması məqsədilə bu qəbildən olan məlumatların Baş Prokurorluğun mətbuat xidməti ilə dəqiqləşdirilməsi xahiş edilib.

# Ermənistanda totalitar diktatura qurulur

## İşğalçı ölkədə daxili qarşıdurma daha gərgin mərhələyə qədəm qoyur

Ermənistanda baş nazir Nikol Paşinyanın rəqiblərinə qarşı repressiyası davam edir. Amma onun indi əsas rəqiblərdən biri kimi gördüyü "Çiçəklənən Ermənistan" partiyasının lideri, iş adamı Qaqik Tsarukyanın həbsini reallaşdırması müşkülə çevrilib. Belə ki, Yerevan məhkəməsi "Çiçəklənən Ermənistan" partiyasının liderinin həbsi barədə qərar qəbul etməkdən imtina edib. Tsarukyanın vəkili Erem Sarkisyan bu xüsusda bildirib: "Məhkəmə Tsarukyanın həbsi ilə bağlı ittihamı rədd etdi. Sevinirəm ki, məhkəmə özündə güc tapdı və siyasi proseslərdən yuxarıda dayandı".

Qeyd edək ki, bundan əvvəl Ermənistan parlamenti Tsarukyanın deputat toxunulmazlığını ləğv etmişdi. Tsarukyan üç cinayət işində təqsirli bilinir. Bura onun şirkətlərinin vergidən yayınması, seçiciləri pulla ələ alması və qanunsuz olaraq torpaq sahələrinin mənimsənilməsi daxildir. Partiya sədri həm də dövlətə 685 min dollar ziyan vurmaqda günahlandırılır.

Tsarukyan hakimiyyətin hərəkətlərini siyasi təqib adlandırıb. O, jurnalistlərə deyib ki, bu maddə ilə heç kim tutulmayıb, ola bilsin ki, cərimə qərarı olsun: "Ancaq onlar müxalifət partiyasının rəhbərini, Milli Olimpiya Komitəsinin prezidentini həbs etmək istəyirlər. Əgər ölkənin indi uçurumda olmasına görə mən günahkaramsa, barmaqlıqlar arxasında oturmağa hazıram. Ancaq mənim üçün bütün bunlar anlaşılmazdır".

Erməni siyasi-ictimai xadimi Samvel Farmanyan isə bildirir ki, baş verənlər Ermənistanın demokratik və beynəlxalq nüfuzunun sarsılmasıdır: "Addım-addım başqa bir ağır problem yetişir: beynəlxalq ictimaiyyətin qavrayışlarında Ermənistan demokratiyaya, insan hüquqlarına və qanunun aliliyinə müharibə elan etmiş dövlət kimi təsvir olunmağa başlayır".

Ekspertlər qeyd edirlər ki, Nikol Paşinyan koronavirus pandemiyası dövründə vətəndaşların sosial-iqtisadi problemlərini həll etməkdə ciddi çətinliklərlə qarşılaşır, xəstəliyin yoluxma sayının artmasının qarşısını ala bilməməsi səbəbilə sürətlə sosial dayaqlarını itirir. Təsadüfi deyil ki, erməni mətbuatı da N.Paşinyanın aqoniya vəziyyətində olduğunu iddia edir, bunun əsas səbəbini isə parlament müxalifətinin, xüsusilə də "Çiçəklənən Ermənistan" partiyasının açıq şəkildə hökumətin tam tərkibdə istefasını tələb etməsi göstərilir.

Belə vəziyyətdə Paşinyan rəqiblərə qarşı gücü işə salır. Ümumiyyətlə, Paşinyanın tapşırığı ilə indiyədək Ermənistanın keçmiş rəhbərliyinə qarşı silsilə cinayət işləri açılıb və hazırda istintaq davam edir. Gələcəkdə özünə rəqib olacaq və ya rəqib olmaq ehtimalı olan istənilən şəxsi korrupsiya ilə mübarizə ittihamı ilə həbs etmək tam gözləniləndir. Ölkədə siyasi repressiyalar həyata keçirilir və Paşinyanın yeganə məqsədi öz hakimiyyətinin müddətini uzatmaqdır.

Bu durumda Ermənistanda totalitar diktatura qurulub. Bu ölkənin Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru, "Vətən" partiyasının sədri Artur Vanetsyan bildirib ki, Ermənistanda yaranmış bugünkü vəziyyət hökumətin və şəxsən Paşinyanın yol verdiyi taleyüklü səhvlərin nəticəsidir: "Onlar on minlərlə xəstəliyə, yüzlərlə ölüm, hələ də dayanmayan faciəyə səbəb olan bu səhvləri başa düşməyə və qəbul etməyə hazırdırlar? Paşinyan siyasi marağını vətəndaşlarımızın həyatından üstün tutur".

Bu vəziyyətdə Ermənistanın siyasi həyatında müxaliflər birləşirlər. "Çiçəklənən Ermənistan" partiyası, "Vətən" partiyası və "Daşnaksütun" partiyası artıq bir blokdadır. Ermənistanın keçmiş fövqəladə hallar naziri Hraçya Rostomyan isə bildirir: "Ermənistan cəmiyyəti sürətli həllər tapmasa, ölkə Paşinyan komandasının səriştəsiz idarəetməsinin xarabalıqları altında qala bilər".

Ermənistanda yaranmış gərgin daxili siyasi vəziyyət barədə keçmiş erməni nazirin fikirlərinə "analitik.am" xəbər saytının təsisçi-redaktoru Ani Hohannisyan da dəstək verib: "Çox pis yerə gedirik, dövlətimizi itirə bilərik".

Bütün bunlar Ermənistanda yeni bir çöküşün yaşandığını göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm

## Daha 14 əfqan hərbçisi və polisi azad edildi



"Taliban" daha 14 əfqan hərbçisini və polisini azad edib. RİA Novostinin xəbərinə görə, bu barədə hərəkatın Qətərdəki nümayəndəsi Suheyl Şahin "Twitter"də yazıb.

Bundan əvvəl Əfqanıstan Milli Təhlükəsizlik Şurasının nümayəndəsi Cavid Feysal bildirmişdi ki, Əfqanıstan hökuməti 3 minədək "Taliban" üzvünü azad edib. "Taliban" isə ən azı 5 min üzvünün azad olunmasını tələb edir. Xatırladaq ki, fevralın 29-da ABŞ və "Taliban" arasında sülh sazişi imzalanıb. Bu saziş əsasında Əfqanıstandakı qüvvələr arasında danışıqlar martın 10-dan başlamalıydı.

Qarşılıqlı etimad yaratmaq məqsədilə həbsxanada olan 5 minə yaxın "Taliban" üzvü və "Taliban" tərəfindən əsir götürülmüş min nəfərə yaxın şəxs azad edilməli idi.

## Almaniyada iğtişaşlar zamanı 19 polis xəsarət alıb



Almaniyanın Ştutqart şəhərində baş vermis iğtişaşlar zamanı 19 polis əməkdaşı xəsarət alıb.

Bu barədə şəhər polisinin rəisi Tomas Berqer "SWR" radiostansiyasına müsahibəsində bildirib. Qeyd edilir ki, şəhərin Şlossplatz meydanında baş verən iğtişaşlar zamanı 400-500-dək adam toplaşıb. Polisin məlumatına görə, iğtişaş iştirakçıları polisə qarşı aqressiv hücumlar edib, mağaza vitrinlərini dağıdıb və qarət ediblər. Hadisə yerinə 280 nəfərlik polis əməkdaşları gəlib, ümumilikdə 24 nəfər saxlanılıb. İğtişaşlar zamanı 40-dək mağazaya ziyan dəyib.

İğtişaşlar narkotik satışı ilə əlaqədar polisin yoxlamalarından sonra baş verib. Polis 17 yaşında bir oğlanı yoxlamaq istəyən zaman daha 200-300 nəfər onu müdafiə etməyə çalışıb və polis əməkdaşlarına daş və su qabları atıblar.

## ABŞ hərbi-hava qüvvələrinin bazasında yanğın baş verib



ABŞ hərbi-hava qüvvələrinin Yaponiyanın Okinava prefekturasında yerləşən Kadena bazasında yanğın baş verib.

Kyodo agentliyi xəbər verir ki, bazanın ərazisində yerləşən binalardan birinin üzərində tüstü müşahidə edilib. Yanğının başvermə səbəbləri məlum deyil və zərərçəkənlər barədə məlumat verilməyib.

Kadena ABŞ hərbi-hava qüvvələrinin yalnız Okinavada deyil, bütün regionda ən böyük bazalarından biridir. Təqribən iki min hektar ərazini əhatə edən baza 3,7 min metr uzunluğunda iki uçuş-enmə zolağına malikdir.

## Türkiyədə sel və daşqın nəticəsində ölənlərin sayı 6-ya çatıb



Türkiyənin Bursa vilayətində sel və daşqın nəticəsində itkin düşən şəxslərdən daha beşinin cəsədi tapılıb. Beləliklə, ölənlərin sayı altıya yüksəlib. Bir nəfərin axtarışı davam edir.

AZƏRTAC xəbər verir ki, Bursa ilə yanaşı, Sakarya, Əskişəhər, Ədirnə, Kocaeli, Balıkəsir, Ordu və digər vilayətlərdə də baş verən güclü sel və daşqın ciddi fəsadlar yaradıb. Güclü külək ağacları qırıb, maşınları sel aparıb. Şəhər mərkəzlərində yollar çöküb. Məhəllələr selin gətirdiyi daş, torpaq, lil yığını, ağac kötükləri ilə dolub. Bərpa və təmizlik işlərinə ağır texnikalar cəlb olunub. Əhaliyə külli miqdarda zərər dəyib.

Türkiyə Daxili İşlər Nazirliyinin nəzdindəki Fövqəladə Halların İdarə Olunması Agentliyinin dəstələri xilasetmə və bərpa işlərini gecə davam etdirib. Daxili İşlər naziri Süleyman Soylu Bursadakı təbii fəlakət bölgəsində olub.

# Bakıda sistem əhəmiyyətli 220 kilovoltluq yeni yarımstansiya tikilib



Bakı şəhəri və ətraf qəsəbələrin sosial, iqtisadi, sənaye və digər sahələrin sürətli inkişafını, əhalinin, o cümlədən son illərdə tikilən çoxmənzilli binaların elektrik enerjisinə artan tələbatını qarşılamaq üçün "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti sistem əhəmiyyətli 220/110/10 kilovoltluq tam yeni yarımstansiya tikib. Bakı şəhərinin şimal hissəsindəki 110 kilovoltluq yarımstansiyaları qidalandırmaqla yanaşı, paytaxtdakı sistem əhəmiyyətli mövcud 220 kilovoltluq yarımstansiyaların yükünü azaltmağa, bununla da qəzaların qarşısını almağa, itkiləri azaltmağa, dayanıqlığı və etibarlığı artırmağa xidmət edəcək "Böyükşor" adlanan yeni 220 kilovoltluq yarımstansiya istehlakçıların normalara uyğun keyfiyyətli elektrik enerji ilə təchizatında müstəsna rol oynayacaq. Atmosfer şəraitinin təsirinə məruz qalmamaq, ətraf mühiti qorumaq və daha az yer tutmaq üçün qapalı şəraitdə, tam müasir üslubda tikilən "Böyükşor" yarımstansiyasında 3 ədəd 250 meqavolt amper gücündə transformator, 220 və 110 kV-luq qapalı paylayıcı qurğular tikilib. Yarımstansiya məsafədən idarə olunan SCADA dispetçer idarəetmə sisteminə qoşulacaq.

"Böyükşor" yarımstansiyasının sistemə qoşulması ilə Abşeron enerji qovşağını qidalandıran 220 kilovoltluq hava xətlərinin yüklənməsinin, həmçinin bu xətlərdə olan itkilərin azalmasına nail olunacaq. Onu da qeyd edək ki, "Böyükşor" yarımstansiyası qurularkən perspektiv sosial-iqtisadi inkişaf, əhalinin artan tempi nəzərə alınıb.

Son iki ilə qədər Bakı və Abşeron yarımadasında cəmi 5 ədəd 220 kilovoltluq yarımstansiya fəaliyyət göstərirdi ki, onların da 4-ü istismar müddətini başa vurmuşdu. Son iki ildə isə Böyükşor və "Şimal" Elektrik Stansiyasının ərazisində qapalı tipli iki yarımstansiya tikilərək 220 kilovoltluq yarımstansiyaların sayı yeddiyə çatdırılıb. Eyni zamanda istismar müddətini bitirən sistem əhəmiyyətli 4 ədəd 220 kilovoltluq yarımstansiyanın ikisində yenidənqurma işi tamamlanıb, digər iki yarımstansiyada isə yaxın aylarda tamamlanacaq.

***"Azərbaycan"***

---

**"Azərsu" Açıq Səhmdar Cəmiyyəti**

**Almaniya İnkişaf Bankı (KfW) ilə birgə maliyyələşdirilən layihə çərçivəsində Şəki şəhərinin bir hissəsində su və kanalizasiya sisteminin tikintisi üzrə qurulacaq sistemin dayanıqlı istismarı və texniki xidmətin təmin edilməsi məqsədilə layihənin Hökumət payı iştirakı hesabına "Şəki Sukanal" TSC-nin İqtisadi Planının hazırlanması xidmətlərinin satın alınması üçün**

***kotirovka sorğusu elan edir***

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və satınalmaların idarə olunması departamentinin Satınalmaların təşkili şöbəsinə (əlaqələndirici şəxslər: Departament rəisinin müavini - Murad Abışev, tel: 431-47-67/1087 və Satınalmalar üzrə aparıcı-mühəndis - İntizam Novruzov, tel: 431-47-67/3019, **intizam.novruzov@azersu.az**) yazılı müraciət edərək kotirovka sorğusunu əldə edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 25 iyun 2020-ci il saat 12:00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri "Azərsu" ASC, Bakı şəhəri, Moskva prospekti, 67 nömrəli ünvanda 29 iyun 2020-ci il saat 16:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

---

**"Azərsu" Açıq Səhmdar Cəmiyyəti**

**Almaniya İnkişaf Bankı (KfW) ilə birgə maliyyələşdirilən layihə çərçivəsində Gəncə şəhərinin mərkəzi hissəsində su və kanalizasiya sisteminin tikintisi üzrə qurulacaq sistemin dayanıqlı istismarı və texniki xidmətin təmin edilməsi məqsədilə layihənin Hökumət payı iştirakı hesabına "Gəncə Sukanal" TSC-nin İqtisadi Planının hazırlanması xidmətlərinin satın alınması üçün**

***kotirovka sorğusu elan edir***

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və satınalmaların idarə olunması departamentinin Satınalmaların təşkili şöbəsinə (əlaqələndirici şəxslər: Departament rəisinin müavini - Murad Abışev, tel: 431-47-67/1087 və Satınalmalar üzrə aparıcı-mühəndis - İntizam Novruzov, tel: 431-47-67/3019, **intizam.novruzov@azersu.az**) yazılı müraciət edərək kotirovka sorğusunu əldə edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 25 iyun 2020-ci il saat 12:00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri "Azərsu" ASC, Bakı şəhəri, Moskva prospekti, 67 nömrəli ünvanda 29 iyun 2020-ci il saat 16:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

---

# Gənclər təşkilatları üçün 14-cü qrant müsabiqəsinin nəticələri elan edilib

Azərbaycan Respublikasının Gənclər Fondu gənclər təşkilatlarının layihələrinin maliyyələşdirilməsi üzrə fevralın 10-dan martın 10-dək keçirilən növbəti müsabiqənin nəticələrini elan edib.

Gənclər Fondundan AZƏRTAC-a bildiriblər ki, bu qurumun Müşahidə Şurasının tapşırığına əsasən, layihələr mövcud vəziyyətə (koronavirus pandemiyası) uyğunlaşdırılmalı və onlayn formatda həyata keçirilməlidir. Bu tələblərə cavab verən 32 layihə təklifi müsabiqəyə təqdim edilib. Qiymətləndirmədən sonra 18 yerli və 1 beynəlxalq layihənin dəstəklənməsi məqsədəuyğun hesab edilib.

Müsabiqə qaliblərinin siyahısı Gənclər Fondunun rəsmi internet saytında (**www.youthfoundation.az**) yerləşdirilib.




Qrantın alınması məqsədilə bu gündən etibarən müsabiqədə qalib olmuş hər bir gənclər təşkilatı Gənclər Fondunun rəsmi internet saytına öz kod və şifrəsi ilə daxil olaraq müqavilənin elektron şəkildə razılaşdırılmasını həyata keçirə bilərlər. Azərbaycan Respublikası Gənclər Fondunun qrant müsabiqələri çərçivəsində gənclər təşkilatı ilə Gənclər Fondu arasında qrant müqaviləsinin bağlanması üçün elektron sistemə daxil olduqdan sonra Xidmətlər bölməsindən istifadə edərək Müqavilə pəncərəsinə keçid edilməlidir.

Qrantın alınması məqsədilə müqavilələrin imzalanması üçün sənədlərin göndərilməsi üçün son tarix iyulun 10-u müəyyən olunub.

# Hava əsasən yağmursuz keçəcək

Azərbaycanda iyunun 23-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 21-24°, gündüz 31-36° isti, Bakıda gecə 22-24°, gündüz 33-35° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 758 millimetr civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 40-50 faiz təşkil edəcək.

Abşeron çimərliklərində mülayim şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Dəniz suyunun temperaturunun şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 22-23°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 24-25° isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin səhər və gündüz bəzi şimal və qərb rayonlarında şimşək çaxacağı, yağış yağacağı, ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 33-38° isti, dağlarda gecə 12-17°, gündüz 22-27° isti olacağı ehtimal edilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, iyunun 23-24-də Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim tərəddüdü gözlənilir ki, bu da meteohəssas insanlar üçün nisbətən əlverişlidir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 15-20°, gündüz 32-37° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində gün ərzində şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 12-17°, gündüz 22-27° isti olacağı proqnozlaşdırılır.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-24°, gündüz 31-36° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Dolu düşəcəyi ehtimalı var. Səhər dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 30-35° isti, dağlarda gecə 10-15°, gündüz 22-27° isti olacağı ehtimal edilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 33-38° isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər dağlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-24°, gündüz 31-36° isti, dağlarda gecə 17-20°, gündüz 25-30° isti olacağı gözlənilir.

---

**B İ L D İ R İ Ş**

"Azərbaycan" qəzetinin 13 fevral 2020-ci il tarixli sayında dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalında (https://www.etender.gov.az) Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmalarda (eTender) Təmizlik xidmətlərinin satın alınması üzrə "ŞEH" MMC qalib olmuşdur.

Qalib şirkətlə 19 iyun 2020-ci ildə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

---

**Samux Rayon Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi**

**Avtonəqliyyat vasitələrinin təmiri üçün ehtiyat hissələrinin satın alınması üçün**

***kotirovka sorğusu elan edir***

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər Samux şəhəri, Heydər Əliyev pr., Samux Rayon Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinə (əlaqələndirici şəxs: operator - Vəfa Zeynalova, tel: 022 2751468) yazılı müraciət edərək kotirovka sorğusunu əldə edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 25 iyun 2020-ci il saat 12:00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri Samux şəhəri, Samux Rayon Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi, Heydər Əliyev pr. ünvanında 29 iyun 2020-ci il saat 16:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

---

**Samux Rayon Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi**

**Yaşıllaşdırma işlərinin həyata keçirilməsi məqsədilə mal-materialların, ağac tinglərinin, bəzək kolları və gül-çiçəklərin satın alınması üçün**

***kotirovka sorğusu elan edir***

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər Samux şəhəri, Heydər Əliyev pr., Samux Rayon Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinə (əlaqələndirici şəxs: operator - Vəfa Zeynalova, tel: 022 2751468) yazılı müraciət edərək kotirovka sorğusunu əldə edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 25 iyun 2020-ci il saat 12:00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri Samux şəhəri, Samux Rayon Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi, Heydər Əliyev pr. ünvanında 29 iyun 2020-ci il saat 16:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

---

**Sumqayıt Şəhər İcra Hakimiyyəti 2020-ci ildə 312100 - "Tikili və avadanlıqların əsaslı təmiri" maddəsi üzrə Sumqayıt şəhəri, 13 saylı uşaq bağçasının əsaslı təmiri işlərinin satın alınması məqsədilə**

***açıq tender elan edir***

Tender 1(bir) LOT üzrə keçiriləcəkdir.

Tender iştirakçılarına təklif olunur ki, **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı 250 manatdır.**

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab №: AZ14CTRE00000000000002516631**
**Büdcə səviyyəsinin kodu 7y**
**İqtisadi təsnifat 142330**
**VÖEN: 2900054881**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır .

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 27 iyul 2020-ci il saat 15:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 06 avqust 2020-ci il saat 15:00-a qədər Portala təqdim etməlidirlər.

İddiaçıların təklifləri 07 avqust 2020-ci il saat 15:00-da Portalda açılacaqdır.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

---

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin əməkdaşları komissiya sədrinin müavini Rövzət Qasımova əzizi

**DURNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi iş yoldaşları Aytən Tağıyevaya həyat yoldaşı

**YUSİF MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə Kommersiya Məhkəməsinin kollektivi məhkəmənin hakimi Kənan Vəliyevə əmisi

**ÇİNGİZ VƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Prokurorluğun veteranı Zahid Tağıyevə əzizi

**YUSİF MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Tibb baş idarəsinin kollektivi iş yoldaşları Aytən Tağıyevaya həyat yoldaşı

**YUSİF MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Əmək və müharibə veteranı Rəzzaq Gözəlov AZAL-ın Təhlükəsizlik Xidməti İdarəsinin əməkdaşı Rasim Hüseynova anası

**NÜBAR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7376
Sifariş 1608
Qiyməti 40 qəpik